# AVROPA TƏHSİL MƏKANINDA (ATM) KEYFİYYƏTƏ NƏZARƏT ÜZRƏ STANDART-LAR VƏ ƏSAS PRİNSİPLƏR

Бакы – 2008

**Avropa Ali Təhsil Məkanında Keyfiyyətin təmin olunması üzrə standart və tövsiyələrə dair ATKYQ-nin (ENQA) hesabatı**

© Ali Təhsildə Keyfiyyətin təmin olunması üzrə Avropa Cəmiyyəti, 2007, Helsinki, 2-ci nəşr

**АВРОПА ШУРАСЫНЫН ТЯЩСИЛ ВЯ МЯДЯНИЙЙЯТ ЦЗРЯ ДИРЕКТОРЛУЬУ**

Bu layihə Socrates proqramı çərçivəsində Avropa Komissiyası tərəfindən maliyyələşdirilmişdir. Bu nəşr olunmuş sənəd ancaq müəlliflərin baxış və nöqteyi-nəzərlərini əks etdirir və Komissiya bu nəşrdə verilmiş informasiya heç bir məsuliyyət daşımır.

## MÜNDƏRICAT

**Ön söz** ....................................................................................4

**Qısa İcmal** ...........................................................................6

1. Tövsiyyəlar yerinə yetirilərkən............................................... 7
2. Təhsildə keyfiyyət yoxlamaları və qiymətləndirmə üzrə Avropa Standartlarının qısa siyahısı.........................................8

**I hissə:** Ali təhsil müəssisələri içərisində daxili qiymətləndirmə ilə bağli Avropa standartlari və direktivlər........ 9

**II hissə:** Ali təhsildə keyfiyyət yoxlamalarы aparan kənar (xarici) təşkilatlar ücün Avropa standartları...............................11

**III hissə:** Xarici (kənar) yoxlama agentlikləri вя təşkilatlari üçün Avropa standartları.......................................... 13

1.Kontekst məqsədlər və qaydalar............................................ 15

2.Avropa standartları və əsas prinsiplərи................................. 18

3.Keyfiyyət yoxlama agentlikləri üçün dəqiq yoxlama sistemi..... 38

**Əlavə:** Keyfiyyət yoxlama agentliklərinin dövri yoxlamalari – nəzəri model.......................................................50

# ÖN SÖZ

2003-cü il sentyabrın 19-da Bolonya Prosesi iştirakçıları olan dövlətlərin təhsil nazirlərinin iştirakı ilə keçirilən yığıncağın Berlin bəyannaməsində bildirilir ki, üzv dövlətlərin nazirləri Avropa Şəbəkəsinə üzv dövlətləri öz səylərini birləşdirərək EUA, EURASHE, həmçinin ESİB –lə birgə təhsildə nəzarət və keyfiyyətə xidmət edən razılaşdırılmış standartları, metodik qayda və göstərişləri daha da inkişaf etdirib təkmilləşdirmək və eyni zamanda, təhsildə keyfiyyəti təmin etmək baxımından uyğun olan üsul və yolların aranıb tədqiq olunması, münasib yoxlama-nəzarət sisteminin yaradılması məqsədilə (Avropa Şəbəkəsi ölkələrini)" Ali Təhsildə Keyfiyyətin Yoxlanması və Təmin Olunması üzrə Avropa Şəbəkəsi" mövzusunda bir araya gətirdilər. Eyni zamanda qərara alındı ki, 2005-ci ildə nazirlərə Bolonya Prosesinə qoşulacaq qrupların vasitəsilə hesabat verə biləcək akkreditə olunmuş agentliklərin və orqanların yaradılması təmin olunsun. Nazirlər, həmçinin təhsildə keyfiyyətin təmin olunması ilə bilavasitə məşğul olan cəmiyyətlərin, şəbəkələrin və digər ekspertlərin də rəylərinin nəzərə alınmasını vurğuladılar. Bu hesabat təyin olunmuş mandat və tapşırıqlara tam cavab verir və bəyannamənin uyğun bölməsində adları çəkilən təşkilatlar tərəfindən razılıqla qarşılanır. Belə qarşılıqlı anlaşmanın əldə olunması və uğuru cəlb edilmiş tərəflər arasında aparılan müzakirələrin qarşılıqlı hörmət və əməkdaşlıq ruhunun bariz nümunəsidir. Buna görə də mən EUA, EURASHE və ESİB-ə bu prosesə ENQA-nın üzv agentlikləri ilə birlikdə verdikləri yaradıcı və çox dəyərli məlumatlara görə öz təşəkkürlərimi bildirirəm. Bu hesabatın Avropa ölkələri Təhsil nazirləri tərəfindən hazırlanmasına baxmayaraq, biz hesabatın ali təhsildə keyfiyyətin təmin edilməsində maraqlı olan geniş dairələr tərəfindən də yüksək səviyyədə qəbul ol-

unacağına inanırıq. Hesabatın geniş oxucu kütləsi üçün çox faydalı və dəyərli olacağına inanırıq.

Qeyd olunmalıdır ki, bu hesabat müxtəlif dəyərlərin qorunub möhkəmləndirilməsi yolunda keyfiyyətlə bağlı bütün gözlənilən nəticələrin qazanılmasında bütün Avropa Ali Təhsil Məkanında (EHEA) təhsillə bağlı olan institutlar və agentliklər tərəfindən atılan ilk addım kimi qiymətləndirilməlidir.Avropa Ali Təhsil Məkanında təhsilin keyfiyyətinin yoxlanılması üzrə fəaliyyətdə olan Avropa standartlarını daha da inkişaf etdirmək baxımından Berlin kommunikesində qarşıya qoyulmuş vəzifələr lazım gələrsə, gələcəkdə daha da təkmilləşdirilə bilər. Bütün bunlar yerinə yetirilərsə, o zaman Bolonya Prosesində nəzərdə tutulmuş bütün öhdəliklər, qarşıya qoyulmuş vəzifələr müvəffəqiyyətlə həyata keçəcəkdir. Əminəm ki, yığıncağın işində olan bütün iştirakçılar bu vəzifələrin uğurla həyata keçirilməsi üçün öz köməklərini əsirgəməyəcəklər.

Kristian Tyun
ENQA-nın prezidenti
Fevral, 2005-ci il.

# QISA İCMAL

Bu hesabat Avropa Cəmiyyəti Ali Təhsilin Yoxlanılması və Qiymətləndirilməsi üzrə Avropa Cəmiyyətinin (ENQA) öz üzvlərinin dəstəyi və təşkilatçılığı ilə EUA, ESİB və EURASHE – la məsləhətləşmələrdən, əməkdaşlıqdan və eləcə də müxtəlif təhsil qurumları (şəbəkələri) ilə birgə keçirilən müzakirələrdən sonra hazırlanmışdır. Bu hesabat 2003-cü il sentyabrın 19-da Berlin bəyannaməsində AATYQ-ə (ENQA) verilən uyğun səlahiyyətlərə tam cavab verir: Bu mandatlar isə ali təhsildə yoxlama və qiymətləndirmə üzrə razılaşdırılmış standartların, qaydaların, mexanizmlərin və göstərişlərin təkmilləşdirilməsi, təhsildə yoxlama və qiymətləndirmə üzrə adekvat tələblərə cavab verən yoxlama və qiymətləndirmə sisteminin yaradılmasını təmin edən üsulların araşdırılması, akkreditə olunmuş agentlik və orqanların yaradılmasından ibarətdir.

Hesabat dörd hissədən ibarətdir. Эириш щиссясиндян sonra məqsəd və prinsiplər, sonra isə təhsildə yoxlama, səlahiyyətlər, qiymətləndirməyə aid standartlar və göstərişlər üzrə başlıq; təhsildə yoxlamaların aparılması, səlahiyyətlər və qiymətləndirmə üzrə adekvat yoxlama sisteminin araşdırılıb öyrənilməsi məqsədilə agentliklərin təşkili; gələcək perspektivlər və qarşıda duran vəzifələr.

Hesabatın əsas nəticələri və tövsiyələri aşağıdakılardan ibarətdir:

- Təhsildə daxili və xarici yoxlama, verilən səlahiyyətlər və qiymətləndirmə, eləcə də xarici yoxlama və qiymətləndirmə üzrə agentliklər üçün Avropa standartlarının müəyyənləşdirilməsi;

- Avropada təhsilin кейфиййятинин yoxlanılması, qiymətləndirmə ilə məşğul olan agentliklər tərəfindən hər beş ildən bir dövri olaraq yoxlama nəticələrinin təqdim edilməsi;
- Mümkün olan yerlərdə milli qurumlar tərəfindən aparılan yoxlamaların nəticələrinə diqqət verilməsi;
- Yoxlama və qiymətləndirmə agentliklərinin yaradılması üçün Avropa Qeydiyyat Komitəsinin (AQK) təşkili;
- AQK-nin yeni agentliklərin qeydiyyata alınması ilə bağlı nəzarətçi rolunda çıxış etməsi;
- Ali Təhsildə "Yoxlamalar, Akkreditasiya və Qiymətləndirmə" üzrə Avropa Мяшвярят Forumunun yaradılması.

**Tövsiyələr yerinə yetirilərkən**:

- Avropa Ali Təhsil Məkanında (EHEA-AATM) təhsil keyfiyyətinin yaxşılaşdırılması üzrə yoxlama, akkreditasiya və qiymətləndirmə proseslərinin ardıcıllığını təmin etmək üçün razılaşdırılmış standartларын təkmilləşdirilməsi.
- AATM-də monitorinqlərin aparılmasına məsul olan Ali Təhsil Müəssisələri və Agentliklər monitorinqlər zamanı ümumi istiqamətləndirici müddəalardan istifadə edəcəklər.
- AQK professional və etibarlı agentliklərin müəyyənləşdirilməsi qaydasını asanlaşdıracaq.
- Monitorinqlərin aparılması məqsədilə agentliklərin və digər qurumların keyfiyyət və peşəkarlığının tanınması mexanizmləri gücləndiriləcək.
- Monitorinq agentliklərinin apardıqları işlərin etibarlılığı gücləndiriləcək.
- Agentliklər və digər iddiaçı təşkilatlar (o cümlədən, ali təhsil müəssisələri, tələbələr və əmək birjasında çalışan nümayəndələr) arasında olan fikir və təcrübə mübadiləsi Ali

Təhsildə keyfiyyət yoxlamaları və qiymətləndirmə problemləri ilə məşğul olan Avropa Мяшвярят Forumunun vasitəçiliyi ilə gücləndiriləcək.

- Müəssisələr və agentliklər arasında olan qarşılıqlı inam artacaq.
- Qarşılıqlı tanınmaya doğru atılan addımlara təkan veriləcək.

1.ENQA-нын Baş Assambleyası 4 noyabr 2004-cü il tarixində keçmiş "Avropa Şəbəkəsi" adını "Avropa Assosiasiyası" ilə əvəzlədi.

2. Bu hesabatda olan „keyfiyyət yoxlaması" termini „qiymətləndirmə, akkreditasiya və audit" kimi prosesləri nəzərdə tutur.

**Təhsildə keyfiyyət yoxlamaları və qiymətləndirmə üzrə Avropa Standartlarının qısa siyahısı**

Ali təhsildə monitorinqin (keyfiyyət yoxlamaları, qiymətləndirmə, audit və akkreditasiya), Avropa standartlarının yekun qısa siyahısı hesabatın 2-ci başlığından götürülmüş və burada istinad üçün verilmişdir. Bu siyahıda direktivlər göstərilmir. Standartlar 3 hissədən ibarətdir və aşağıdakı müddəaları əhatə edir:

- Ali təhsil müəssisələrinin daxili monitorinq standartları;
- Ali təhsil müəssisələrinin xarici (kənar) monitorinq standartları;
- Xarici (kənar) yoxlama və qiymətləndirmə agentliklərinin yoxlanılması və qiymətləndirilməsi.

## I HİSSƏ: ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ İÇƏRİSİNDƏ DAXİLİ QİYMƏTLƏNDİRMƏ İLƏ BAĞLI AVROPA STANDARTLARI VƏ DİREKTİVLƏR

***1.1 Yoxlama və qiymətləndirmə üzrə siyasi xətt və mexanizmlər:***

Təhsil müəssisələri öz proqram və təlimatlarının standart və keyfiyyət yoxlamaları üçün siyasi xəttə və əlaqəli prosedur qaydalara malik olmalıdırlar. Onlar, həmçinin öz işlərində keyfiyyətin vacibliyini və keyfiyyət yoxlamalarını təqdir edən çox şəffaf, mədəni inkişafa sahib olmağa borcludurlar. Bunlara nail olmaqdan ötrü müəssisələr ardıcıl olaraq keyfiyyətin artırılması ilə bağlı daima vahid bir strategiya hazırlayıb tətbiq etməlidirlər. Həmin strategiya, siyasi kurs və qaydalar rəsmi statusa malik olmalı, eyni zamanda hamı üçün açıq olmalıdır. Onlar həm tələbələr, həm də digər iddiaçı təşkilatlar üçün də mühüm rol oynayır.

***1.2 Proqram və təlimatların dövrü nəzərdən keçirilməsi, monitorinqi və təsdiqi:***

Müəssisələr öz proqram və təlimatlarını мцнтязям olaraq nəzərdən keçirmək, monitorinq aparmaq və təsdiqləmək üçün formal mexanizmlərə sahib olmalıdırlar.

***1.3 Tələbələrin qiymətləndirilməsi:***

Ardıcıl olaraq tətbiq edilən prosedur qaydalardan, nizamnamələrdən və гябул olunmuş kriteriyalardan istifadə etməklə tələbələr qiymətləndirilməli/mükafatlandırılmalıdır.

***1.4 Müəllim heyətinin keyfiyyət baxımından yoxlanılması:***

Təhsil müəssisələri tələbələrin birbaşa təhsili ilə məşğul olan müəllim heyətinin tam ixtisaslı, тяърцбяли və öz işini bilən in-

sanlar olmasına əmin olmaq üçün üsullara sahib olmalıdırlar. Bu üsullar həm xarici (kənar) müşahidəçilər və ya yoxlamalar üçün açıq olmalı, həm də hesabatlarda öz əksini tapmalıdır.

***1.5 Öyrənmə mənbələri və tələbə dəstəyi:***

Tədris müəssisələri tam əmin olmalıdırlar ki, tələbələrin öyrənmələri üçün onların təklif və ya təmin etdiyi mənbələr təklif olunmuş proqramlara tam uyğun və yararlıdır.

**1.*6 İnformasiya sistemləri:***

Tövsiyə olunur ki, təhsil müəssisələri öz tədris proqramlarının və başqa fəaliyyət növlərinin сямяряли idarə olunması məqsədilə faydalı informasiya toplanmasını, təhlilini və istifadə olunmasını təmin etsinlər.

***1.7 Ictimai informasiya:***

Tövsiyə olunur ki, təhsil müəssisələri təklif etdikləri proqram və təlimatlarla bağlı həm kəmiyyət, həm də keyfiyyət baxımından yeni, tərəfsiz və obyektiv olan informasiyaları mütəmadi olaraq dərc etsinlər.

## II HISSƏ: ALİ TƏHSİLDƏ KEYFİYYƏT YOXLAMALARI APARAN KƏNAR (XARİCİ) TƏŞKİLATLAR ÜCÜN AVROPA STANDARTLARI

***2.1 Daxili keyfiyyət yoxlamaları qaydalarından istifadə olunması:***

Keyfiyyət yoxlamaları aparan xarici təşkilatlar Avropa standartları və Direktivlər bölməsinin 1-ci hissəsində nəzərdə tutulan yerli təşkilatlar üçün keyfiyyət yoxlamaları qaydalarının faydalı və effektli olmasını nəzərə alsınlar.

***2.2 Xarici yoxlamalar üçün mövcud olan qaydaların təkmilləşdirilməsi:***

Bütün cavabdeh qurumlar (o cümlədən ali təhsil müəssisələri) qaydaları təkmilləşdirməzdən əvvəl onun məqsəd və vəzifələrini müəyyənləşdirməli, daha sonra istifadə olunacaq qaydaları təsvir edilmiş formada dərc etməyə borcludurlar.

***2.3 Qərarların qəbulu ilə bağlı kriteriyalar:***

Xarici təşkilatların təhsilin keyfiyyətini yoxlamaq fəaliyyəti nəticəsində qəbul etdiyi hər hansı bir qərar daim tətbiq olunan, aydın dərc edilmiş və dəqiq kriteriyalara əsaslanmalıdır.

***2.4 Məqsədəuyğun qaydalar:***

Bütün kənar (xarici) keyfiyyət yoxlamaları qaydaları konkret olaraq, onların qoyduqları məqsəd və vəzifələrə nail olmağı təmin etmək baxımından tərtib olunmalıdır.

***2.5 Hesabat vermə:***

Hesabatlar elə bir üslubda yazılmalı və dərc edilməlidir ki, nəzərdə tutulmuş oxucular üçün aydın, qəbul edilən və anlaşılan

olsun. Hesabatlarda olan hər hansı bir qərar, təltif və məsləhətlər oxucu duyumu üçün asan olmalıdır.

***2.6 Ardıcıl (mərhələli) prosedurlar:***

Özündə fəaliyyət üçün tövsiyələr ehtiva edən yaxud sonrakı fəaliyyət planı tələb edən keyfiyyət yoxlamaları prosesləri qabaqcadan müəyyənləşdirilmiş mərhələli tətbiq edilən prosedur qaydalara malik olmalıdır.

***2.7 Periodik (dövri) yoxlamalar:***

Təhsil müəssisələrinin və proqramların kənar (xarici) qurumlar tərəfindən keyfiyyət yoxlamaları dövri əsaslarla həyata keçirilməlidir. İstifadə ediləcək vaxtın müddəti və yoxlama prosedurları qabaqcadan müəyyənləşdirilməli və dərc olunmalıdır.

***2.8 Bütün yoxlama sisteminin təhlili:***

Keyfiyyət yoxlamaları keçirən agentliklər/təşkilatlar öz yoxlamalarının, qərarlarının və qiymətləndirmə fəaliyyətlərinin ümumi nəticələrini təsvir və təhlil edən vaxtaşırı yekun hesabatları verməlidirlər.

# III HISSƏ: XARİCİ (KƏNAR) YOXLAMA AGENTLİKLƏRİ BЯ TƏŞKİLATLARI ÜÇÜN AVROPA STANDARTLARI

***3.1 Ali təhsildə xarici (kənar) keyfiyyət yoxlamalarının istifadəsi:***

Təhsildə keyfiyyət yoxlamaları keçirən xarici (kənar) agentliklər/təşkilatlar Avropa Standartları və Direktivlər bölməsinin 2-ci hissəsində təsvir edilmiş „xarici (kənar) qurumar üçün yoxlama qaydaları"nın mövcudluğunu və effektivliyini nəzərə almalıdırlar.

***3.2 Rəsmi status:***

Agentliklər Avropa Ali Təhsil Məkanında olan nüfuzlu/səlahiyyətli ictimai təşkilatlar tərəfindən keyfiyyət yoxlamaları keçirən məsuliyyətli agentliklər/təşkilatlar kimi rəsmi olaraq tanınmalı və hüquqi bazalara əsaslanmalıdırlar. Onlar tərkibində fəaliyyət göstərdikləri uyğun qanunverici yurisdiksiya qurumlarının hər hansı bir tələblərinə tabe olmalıdırlar.

***3.3 Fəaliyyət:***

Agentliklər/təşkilatlar kənar (xarici) qurumların keyfiyyəti yoxlama fəaliyyətlərini (müəssisə yaxud proqram səviyyəsində) düzgün və sistematik əsaslarla qəbul etməlidirlər.

***3.4 Ehtiyatlar:***

Agentliklər həm insan, həm də maliyyə baxımından adekvat və proporsional ehtiyatlara sahib olmalıdırlar ki, bu da öz növbəsində onlara öz xarici keyfiyyət yoxlama prosesini faydalı və təsirli şəkildə həyata keçirməyə, eyni zamanda proseslərin və qaydaların münasib şərtlər daxilində inkişaf etdirilməsini təşkil etməyə imkan versin.

***3.5 Missiyanın rəsmi hesabat bülleteni:***

Agentliklər/təşkilatlar ictimaiyyət üçün açıq olan rəsmi hesabatlarda öz işlərinin aydın, dəqiq olan məqsəd və vəzifələrini göstərməlidirlər.

***3.6 Müstəqillik:***

Agentliklər/təşkilatlar o səviyyədə müstəqil olmalıdırlar ki, onların həm əməliyyatlar(yoxlamalar) keçirmək üçün müstəsna cavabdehlikləri olsun, həm də onların hesabatlarında göstərilən nəticə və məsləhətlərə (tövsiyələrə) 3-cü tərəflər, belə ki, ali təhsil müəssisələri, nazirliklər və ya digər iddiaçı tərəflər təsir göstərə bilməsinlər.

***3.7 Agentliklər tərəfindən istifadə olunan xarici (kənar) təşkilatlar üçün keyfiyyət yoxlama kriteriyaları və prosesləri:***

Agentliklər tərəfindən istifadə olunan üsullar, kriteriyalar və prosedurlar qabaqcadan müəyyən olunmalı və ictimaiyyət üçün açıq olmalıdır. Bu proseslərə адятян aşağıdakılar daxildir:

- özünü qiymətləndirmə, yaxud keyfiyyət yoxlaması prosesinin subyekti (agentlik, qurum, təşkilat) tərəfindən təklif olunan ekвиvalent (bərabərgüclü, qarşılıqlı) prosedur qaydalar.
- bir qrup ekspert tərəfindən verilən kənar (xarici) qiymətləndirmə, o cümlədən uyğun olaraq agentlik tərəfindən qərara alınmış tələbə üzvü(üzvləri) və müəssisədə çalışan əməkdaş(lar).
- hesabatın dərc olunması (o cümlədən, qərarlar, məsləhətlər, tövsiyələr və digər rəsmi nəticələr).

Keyfiyyət yoxlaması prosesinin subyekti tərəfindən qəbul olunmuş hərəkətlərin hesabatda göstərilmiş hər hansı bir məsləhət, tövsiyə əsasında nəzərdən keçirilməsi üçün ardıcıl (profilaktik) prosedurun aparılması.

***3.8 Məsuliyyət prosedurları:***

Agentliklərin mövcud prosedurlarda öz məsuliyyətləri olmalıdır.

# 1.KONTEKST ( ŞƏRAİT), MƏQSƏDLƏR VƏ QAYDALAR

19 sentyabr 2003-cü il Berlin kommunikesinə uyğun olaraq, Bolonya Prosesi İştirakçıları olan dövlətlərin Təhsil Nazirləri „öz üzvlərinin vasitəçiliyi və EUA (AUA-Avropa Universitet Assosiasiyası), EURASHE (Ali Təhsildə Avropa İnstitutları Assosiasiyası) və ESİB-lə ( Avropa Milli Tələbə İttifaqları) əməkdaşlıq edərək təhsildə keyfiyyət yoxlamaları və qiymətləndirmə üzrə razılaşdırılmış standartları, mexanizmləri (prosedur qaydaları) və direktivləri təkmilləşdirmək, eləcə də təhsildə keyfiyyət yoxlamaları və qiymətləndirmə üzrə adekvat yoxlama sistemini təmin edən yolların araşdırılması; orqan və agentliklərin akkreditasiya olunması və 2005-ci ildə Təhsil nazirlərinə görülmüş işlər barədə Bolonya Ardıcıl Yoxlama Qrupları vasitəsilə hesabat vermək" üçün ENQA-nı (Ali Təhsildə Keyfiyyət Yoxlamaları və Qiymətləndirmə üzrə Avropa Şəbəkəsi) dəvət etdi. Təhsil nazirləri ENQA-dan təhsildə keyfiyyət yoxlamaları və qiymətləndirmə ilə məşğul olan digər ekspert qrupların da rəylərinin diqqətə alınmasını xahiş etdilər.

ENQA təhsildə keyfiyyət yoxlamaları və qiymətləndirmə prosesinin təkmilləşdirilməsi və inkişafına Avropa səviyyəsində kömək etmək imkanı verilməsini alqışladı və Bolonya Prosesinin məqsədlərinin həyata keçməsinə yardımçı olacaqlarını bildirdi.

Bu işə müxtəlif təşkilatlar və maraqlı qruplar cəlb olunmuşdur.

İlk öncə ENQA üzvləri bu prosesə intensiv şəkildə qoşulmuşlar. Üzvlər işçi qruplarda iştirak etmiş, layihə hesabatları isə ENQA-nın 2004-cü ilin iyun və noyabr aylarında keçirdiyi əsas yığıncaqların gündəliyinin vacib və əhəmiyyətli elementlərindən hesab olunmuşdur.

İkincisi, Avropa Universitetlər Assosiasiyası (EUA), Ali Təhsildə Avropa İnstitutları İttifaqı (EURASHE), Avropa Milli

Tələbə İttifaqları (ESİB) və Avropa Komissiyası “E4 Group” formatında keçirilən yığıncaqlarda müntəzəm iştirak etmişlər.

Üçüncüsü, Akkreditasiya üzrə Avropa Konsorsiumu (ECA), keyfiyyət yoxlamaları və qiymətləndirmə üzrə agentliklərin Mərkəzi və Şərqi Avropa Şəbəkəsi (CEE Network) və digər şəbəkələrdən alınan yardımlar və əlaqələr layihə prosesində xüsusilə dəyərli olmuşdur.

Nəticədə isə ENQA və onun tərəfdaşları özlərinin fərdi beynəlxalq əlaqələrindən və təcrübələrindən faydalı şəkildə istifadə edərək, münasib beynəlxalq sənəd və fikirlərin həyata keçirilməsi üçün təminat yaratdılar.

Ali təhsildə keyfiyyət yoxlamaları heç də yalnız Avropanı maraqlandırmır. İndi dünyada həm ali təhsilin sürətli inkişafını, həm də onun ictimai və fərdi xəzinəyə verdiyi dəyəri özündə əks etdirən keyfiyyət və yüksək standartlara artan maraq vardır. Müvafiq olaraq, əgər Avropa dünyada ən dinamik və elmə əsaslanan iqtisadiyyata sahib olmağa can atırsa, (Lissabon Strategiyası) onda Avropa Ali Təhsili öz proqram və qərarlarını ciddi şəkildə dərk etdiklərini nümayiş etdirmək fərqində olacaqlar. Onlar həmin keyfiyyətin nümayiş etdirilməsi və inandırılması vasitələrinin yerində olmasına ciddi diqqət edəcəklər. Ali təhsilin bu cür beynəlmiləlləşdirilməsi fonunda Avropanın həm daxilindən, həm də xaricindən gələn təşəbbüs və tələblərə cavab verilməsinə ehtiyac olacaqdır. Bu təkliflərə qatılmış bütün insanların götürdüyü öhdəliklər keyfiyyət yoxlaması üçün əsl Avropa səviyyəsinin həyata keçməsinə gözəl nümunə olmaqla yanaşı, EHEA-nın ali təhsil təklifinin cəzbedici olmasını da gücləndirəcəkdir.

Bu hesabatda olan təkliflər Berlin mandatının 2 hissəsini əhatə edən 2 başlıqda ətraflı şəkildə təsvir edilmiş çoxlu sayda prinsiplərlə (qaydalarla) əsaslandırılmışdır. Bununla belə, bəzi fundamental prinsiplər bütün işə şamil olunmalıdır:

- yüksək keyfiyyətli olan ali təhsildə tələbə, işçi və cəmiyyət maraqları;

- ağır məsuliyyət, cavabdehlik daşıyan və tanınma yolu ilə qəbul edilən təsbit olunmuş muxtariyyətin əsas əhəmiyyəti;

- məqsədləri üçün yararlı olan xarici (kənar) keyfiyyət yoxlamalarına olan ehtiyac və məqsədlərə çatmaq üçün institutlar(müəssisələr) üzərinə yalnız münasib və lazım olan yüklərin qoyulması.

40 dövləti birləşdirən EHEA (Avropa Ali Təhsil Məkanı) özünün müxtəlif siyasi və ali təhsil sistemləri, sosial-mədəni və təhsil ənənələri, dilləri, istək və ümidləri ilə xarakterizə olunur. Bu isə ali təhsildə yad, qəbul olunmayan standartlara, keyfiyyətə və keyfiyyət yoxlamalarına qarşı vahid monolit yanaşma kompleksidir. Avropanın ən yüksək təntənələrindən və nailiyyətlərindən hesab olunan müxtəliflik və rəngarənglik fonunda bu hesabat standartlara qarşı olan dar, köhnə ənənələrə əsaslanan və çox formullaşdırılmış yanaşmaları rədd edir.

## 2.AVROPA STANDARTLARI VƏ ƏSAS PRİNSİPLƏR

„Keyfiyyət yoxlamaları üzrə razılaşdırılmış standartları, prosedur qaydaları və əsas prinsipləri (direktivləri) inkişaf etdirmək və təkmilləşdirmək" üçün nəzərdə tutulmuş Avropa Təhsil Nazirlərinin mandatı çoxlu sayda vacib və əhəmiyyətli sualların yaranmasına səbəb oldu. „Keyfiyyət yoxlaması və qiymətləndirmə"(quality assurance) ali təhsildə ümumi termindir və bu çox mənalarda izah (interpritasiya) oluna bilər. Bütün məna və şərtləri ifadə etmək üçün bir izah vermək qeyri-mümkündür. Eyni olaraq, „standartlar"(standards) sözü də Avropa boyunca müxtəlif mənalarda işlədilir. Məsələn, „dar çərçivədə müəyyən olunmuş tənzimləyici tədbirlər" kimi izahdan tutmuş „daha çox ümumiləşdirilmiş gözəl təcrübələrin təsviri"nə kimi də başa düşülə bilər. Bu sözlər milli ali təhsil sistemlərinin yerli (lokal) kontekstində müxtəlif mənalar daşıya bilər.

Bundan başqa, layihə prosesinin özü açıq şəkildə göstərdi ki, hətta keyfiyyət yoxlamaları aparan qrupların öz daxilində "ali təhsil institutları və bu institutlarda yoxlama aparan xarici (kənar) ekspert qiymətləndiricilər" arasında uyğun münasibətlərin qurulmasına dair bir neçə, tamamilə əsaslı (fundamental) baxış, yaxud yanaşma fərqləri mövcuddur. Bəziləri, əsasən proqram və ya institutlar üçün məsul (akkreditə) olan agentliklər bir fikri əsas götürürlər ki, keyfiyyət yoxlamaları üzrə olan xarici (qeyri milli) qurumlar əsasən "istehlakçının maraqlarını" qorumaq problemi ilə məşğul olmalıdırlar; bu isə o deməkdir ki, işlərini qiymətləndirdikləri ali təhsil müəssisələri ilə keyfiyyət yoxlamaları aparan agentliklər arasında aydın distansiya (hədd) müəyyənləşdirilməsi tələb olunur. Digərləri isə, belə hesab edirlər ki, keyfiyyət yoxlamaları aparan xarici agentliklərin əsas məqsədi tədris proqram-

larının keyfiyyət və standartlarında təkmilləşdirmə axtarışlarında məsləhətlər vermək və rəhbərlik etməkdən, eləcə də qarşılıqlı kadr hazırlığı aparmaqdan ibarət olmalıdır. Sonuncu halda yoxlayanlarla yoxlanılanlar arasındakı sıx əlaqə tələb kimi qoyulur. Ancaq başqaları isə cavabdehliyi və təkmilləşdirməni tənzimləmək axtarışında bu iki mövqe arasında qərar tutmağa üstünlük verirlər.

Bu məsələlərdə müxtəlif mövqeləri, baxışları olan təkcə keyfiyyət yoxlamaları aparan agentliklər deyildir. Ali təhsil institutları və tələbə nümayəndələri orqanlarının maraqları həmişə eyni deyildir; birincilər minimum kənar göstərişlər və qiymətləndirmə olması şərtilə yüksək səviyyədə sərbəstliyə (muxtariyyət - bunun bütün institut səviyyəsində olmasını arzulayırlar) can atırlarsa, ikincilər isə institutların ictimaiyyət qarşısında proqram və hazırlıqların tez-tez təftiş olunması yolu ilə məsuliyyət və cavabdehlik daşımalarını istəyirlər.

Nəhayət, göstərilən standartlar və əsas prinsiplər (direktivlər) ali təhsilin Bolonya Deklarasiyasında (Bəyannaməsində) təsbit olunmuş üç silsiləsinə aid olunur.

### *2.1 Standart və əsas prinsiplərin* **мювзусу**

Hesabatın bu bölməsində Avropa Ali Təhsil Məkanında (EHEA) keyfiyyət yoxlamaları, qiymətləndirmə üzrə təklif olunmuş standartlar və əsas prinsiplərdən bəhs olunur. Standart və əsas prinsiplər strukturundan, funksiya və ölçüsündən, eləcə də hansı milli sistemdə fəaliyyət göstərmələrindən asılı olmayaraq, Avropada olan keyfiyyət yoxlamaları üzrə bütün agentliklər və ali təhsil institutlarında tətbiq olunmaq üçün nəzərdə tutulmuşdur. Qeyd olunduğu kimi, institut və agentliklərin fəaliyyət qaydaları onların sərbəstliyinin (muxtariyyət fəaliyyətlərinin) əsas hissəsi olduğu üçün hesabatın bu başlığında məsləhətlər bölməsinə

müfəssəl „fəaliyyət qaydalarının" daxil edilməsi məqsədəuyğun hesab olunmamışdır. Bu hesabatda bəhs olunan standartların qəbul olunmasının prosedur mərhələlərini necə həyata keçirmək özlərinin fərdi kontekstlərində əməkdaşlıq etməklə institut və agentliklərin öz öhdələrinə verilir. Başlanğıc nöqtəsi kimi bu standartlar və əsas prinsiplər Avropa Universitetlər Assosiasiyasının (EUA) 2003-cü ilin İyul ayında qəbul edilmiş „Qraz Deklarasiyası"nın məzmunu ilə üst-üstə düşür. Bu bəyannamədə də göstərilir ki, keyfiyyət yoxlamaları aparmaq üçün Avropa Standartları meyarının „əsas məqsədi milli kontekst və mövzu sahələrinin müxtəlifliyinə hörmətlə yanaşaraq qarşılıqlı inam və şəffaflığı inkişaf etdirməkdən ibarətdir". Graz Deklarasiyasına uyğun olaraq bu hesabatda olan standart və əsas prinsiplər ali təhsildə milli sistemlərin rolunun önə çəkilməsini, həmin milli sistemlərdə mövcud olan institut və agentliklərin sərbəst fəaliyyətlərinin əhəmiyyətini, eləcə də müxtəlif akademik sahələrin fərdi tələb və xüsusiyyətlərinin nəzərə alınmasını əsas götürür. Göstərilən fikirlərə əlavə olaraq, bu standart və əsas prinsiplərin hazırlanmasında Ali Təhsildə Keyfiyyət Yoxlaması və Qiymətləndirmə (ENQA) üzrə Avropa Şəbəkəsi tərəfindən „Transmilli Avropa Qiymətləndirmə Layihəsi üzrə pilot proqramı (TEEP) həyata keçirilmiş və 3 fənn sahəsi üzrə araşdırma aparılmış, Avropa transmilli keyfiyyət qiymətləndirməsi prosesinin tətbiq edilməsi nəticəsində əldə olunmuş təcrübələrdən də geniş istifadə olunmuşdur.

Standart və əsas prinsiplərin (direktivlərin) hazırlanmasında ATKYQAŞ-nin (ENQA) 2005-ci ilin mart ayında nəşr etdirdiyi „xarici təşkilatların keyfiyyət yoxlamaları və onların uyğunlaşdırılması məsələlərində müxtəlif milli yanaşmalar arasında olan fərq səbəblərinin tədqiq olunmasını şərh edən keyfiyyət uyğunlaşdırılmasının öyrənilməsi" məqaləsində olan fikirlər də nəzərə

alınmışdır. Daha sonra onlar Təhsil Nazirlərinin Berlin Bəyannaməsində yer tapmış „müəssisə sərbəstliyinin prinsiplərinə uyğun olaraq, ali təhsildə keyfiyyət yoxlamalarının əsas məsuliyyəti təhsil müəssisələrinin öz üzərinə düşür və bu da milli keyfiyyət strukturu çərçivəsində akademik sistemin əsl cavabdehlik bazasını təşkil edir" fikirlərini əks etdirir. Buna görə də, bu standart və əsas prinsiplərdə daxili keyfiyyət yoxlamalarının mədəni yollarının yaradılması və inkişafı ilə xarici təşkilatların keyfiyyət yoxlamaları prosedurlarının qaydaları arasında münasib tənzimləmə (balanslaşdırma) üsullarının axtarılmasına səy göstərilmişdir. Deyilənlərə əlavə olaraq, bu standart və direktivlərin (əsas prinsiplərin) yaradılmasında, xüsusilə, Akkreditasiya üzrə Avropa Konsorsiumunun (ECA) 2004-cü ilin dekabrında nəşr etdirdiyi „Yaxşı Təcrübə Kodeksi"(Code of Good Practice), 2004-cü ilin aprelində Avropa Milli Tələbə İttifaqlarının (ESİB) nəşr etdirdiyi „Avropa səviyyəsində razılaşdırılmış prosedur qaydalar və əsas prinsiplərə dair razılaşma" və digər perspektivlər, „Keyfiyyət yoxlamaları və Akkreditasiya Agentlikləri üzrə bərabər yoxlama razılaşması" (aprel 2004), Avropa Universitetляр Assosiasiyasının 2004-cü ilin aprelində nəşr etdirdiyi „Berlin Bəyannaməsi Kontekstində Fəal təsir edən Siyasi Xətt Tezisi" və Ali Təhsildə Avropa İnstitutları İttifaqının (EURASHE) 2004-cü ilin iyununda nəşr etdirdiyi „Boloniya Prosesi üzrə Siyasi Xətt Razılaşması"nin böyük rolu olmuşdur. Nəhayət, bu sənədlərə xarici yoxlamalar üçün mövcud olan standartları beynəlxalq şəbəkə (İNQAAHE) tərəfindən istifadə edilməkdə olan „ Yaxşı Təcrübə üçün Əsas Prinsiplər"lə müqayisə edilərək „beynəlxalq perspektivlər" də daxil edilmişdir.

### *2.2 I-II hissələrə giriş: Ali təhsildə daxili və xarici keyfiyyət yoxlamaları üçün Avropa standartları və əsas prinsiplər.*

Daxili və xarici yoxlamalar üçün mövcud olan standartlar və əsas prinsiplər keyfiyyət və standartlarla bağlı əsas sahələri əhatə etmək şərtilə, Avropa Ali Təhsil Məkanında (EHEA) fəaliyyət göstərən ali təhsil müəssisələri və keyfiyyət yoxlamaları ilə məşğul olan agentliklərin istifadəsi üçün hazırlanmışdır. Bu standart və əsas prinsiplərin (direktivlərin) məqsədi hər iki təşkilat üçün həm öz keyfiyyət yoxlamaları sistemini təkmilləşdirmək istəyi ilə çalışan ali təhsil müəssisələrini, həm də xarici keyfiyyət yoxlamaları ilə məşğul olan agentlikləri yardım və göstərişlər mənbəyi ilə təmin etməklə bərabər, institut, agentliklərin istifadə və istinad edə biləcəkləri ümumi məsləhətlər bazasına yardım etməkdən ibarətdir. Bu, heç də o demək deyildir ki, bu standartlar və prinsiplər təcrübəni diktə edən, əvvəlcədən təyin edilmiş qanunlardır və dəyişdirilə bilməz.

Avropa Ali Təhsil Məkanında (EHEA) olan bəzi ölkələrdə təhsil nazirinin yaxud uyğun(ekvalent) təşkilatın standart və göstərişlərin əhatə etdiyi bəzi sahələr üçün öz cavabdehlikləri vardır. Harada bu əsas məsələ kimi özünü göstərirsə, təhsil naziri yaxud təşkilat münasib keyfiyyət yoxlamaları mexanizmlərinin yerində olmasını və müstəqil yoxlamalar/baxış-lar keçirilməsini təmin etməlidir.

#### *Əsas Prinsiplər*

Avropa Ali Təhsil Məkanında (EHEA) ali təhsilin həm daxili, həm də xarici keyfiyyət yoxlamaları üçün nəzərdə tutulmuş standart və direktivlər(göstərişlər) xeyli sayda əsas prinsiplər üzərində qurulmuşdur. Bunlar aşağıdakılardan ibarətdir:

- ali təhsil təminatçıları keyfiyyətin təminatı və zəmanəti üçün əsas məsuliyyət daşıyırlar;
- ali təhsilin keyfiyyət və standartlarına olan cəmiyyət maraqları qorunmalıdır;
- bütün Avropa Ali Təhsil Məkanında (EHEA) ali təhsil alan tələbələr və ali təhsildən faydalanan digər insanlar üçün akademik proqramların keyfiyyətinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi;
- həmin akademik proqramların təmin olunması və dəstəklənməsi üçün təsirli və faydalı təşkilatı strukturların olması;
- keyfiyyət yoxlamaları proseslərində kənar (xarici) ekspertlərdən istifadə olunması və şəffaflığın əhəmiyyəti;
- ali təhsil müəssisələrində keyfiyyət mədəniyyətinin dəstəklənməsi;
- proseslərin ali təhsil institutlarının öz məsuliyyətlərini, o cümlədən ictimai və fərdi pul köçürülməsi üçün məsuliyyət hissinin nümayiş etdirməsi əsasında inkişaf etməsi;
- cavabdehlik məqsədləri üçün olan keyfiyyət yoxlamalarının onun gücləndirilməsi məqsədlərinə tam xidmət etməsi;
- təhsil müəssisələrinin öz keyfiyyətlərini həm daxildə, həm də beynəlxalq aləmdə nümayiş etdirmək qabiliyyətində olması;
- tətbiq olunan proseslərin rəngarənglik və yeniləşməyə mane olmaması.

***Standart və göstərişlərin məramı***

Standart və göstərişlərin əsas məramları aşağıdakılardır:

- Avropa Ali Təhsil Məkanında (EHEA) olan ali təhsil institutlarında təhsilin tələbələr üçün əlverişli və keyfiyyətli olmasını inkişaf etdirmək;

- ali təhsil müəssisələrinə keyfiyyət işlərinin idarə olunmasında və gücləndirilməsində yardım etməklə, onların sərbətlik istəklərinə kömək etmək;
- keyfiyyət yoxlamaları agentliklərinə işlərində zəmin yaratmaq;
- xarici keyfiyyət yoxlamalarını bu işə cəlb olunmuş hər bir adamın başa düşməsi üçün daha sadə və şəffaf olmasını təmin etmək.

***Standart və göstərişlərin məqsədləri***

- Standart və göstərişlərin əsas məqsədləri aşağıdakılardır:
- parlaq intellektual və təhsil nailiyyətləri aşılayan ali təhsil müəssisələrinin inkişafına dəstək vermək;
- öz keyfiyyət yoxlamaları mədəniyyətini artırmaq istəyən ali təhsil müəssisələrini və uyğun agentlikləri yardım və göstərişlər ilə təmin etmək;
- ali təhsilin keyfiyyət nəticələri və proseslər barədə ali təhsil müəssisələrini, tələbələri, işçiləri, eləcə də digər iddiaçıları məlumatlandırmaq və onların ümidlərini artırmaq;
- Avropa Ali Təhsil Məkanında (EHEA) keyfiyyət yoxlamaları və ali təhsilin təminatlı şəraitinin yaradılması məqsədilə ümumi struktur işlərinə yardım etmək.

***Xarici keyfiyyət yoxlaması***

Bu hesabatda təklif olunan standartlar və göstərişlər xarici keyfiyyət yoxlamaları üçün əhəmiyyətli rol oynayır. Bu sənəddə forma sistemdən sistemə dəyişir və bura müxtəlif müəssisə yoxlamaları daxil ola bilər: fənn yaxud proqram yoxlamaları; fənn, proqram və institut səviyyələrində akkreditasiyalar; və bu qiymətləndirmə tiplərinin kombinasiyalı tətbiqi. Bu cür xarici qiymətləndirmələr geniş şəkildə öz effektivliyinə görə, institutlar

daxilində istifadə olunması və konkret məqsədlər baxımından həmin məqsədlərə nail olmaq  üçün mövcud metod və mexanizmlərin aydın və dəqiq olması, həm də daxili keyfiyyət yoxlaması strategiyasından asılıdır. Xarici agentliklər tərəfindən keyfiyyət yoxlamaları coxlu sayda məqsədlər üçün həyata keçirilə bilər:

- ali təhsilin milli akademik standartlarının qorunması;
- proqram və ya ali təhsil müəssisələrinin akkreditasiya olunması;
- istifadəçinin qorunması;
- proqram və ya institutlar haqqında müstəqil yoxlanılmış informasiyalar (kəmiyyət və keyfiyyət baxımından) üçün ictimai təminatın olması;
- keyfiyyətin yaxşılaşdırılması və gücləndirilməsi.

Avropa keyfiyyət yoxlaması agentliklərinin fəaliyyətləri onların işlədikləri mühit və yurisdiksiyanın (səlahiyyət dairəsinin) hüquqi, sosial və mədəni tələblərini əks etdirəcəkdir. Keyfiyyət yoxlamaları agentliklərinin özlərinin keyfiyyət yoxlanılmalarına aid olan Avropa standartları bu başlığın 3-cü hissəsində əks olunmuşdur.

Keyfiyyət yoxlamaları tərəfindən həyata keçirilən proseslər tamamilə onların nail olmaq istədikləri məqsəd və nəticələrdən asılı olacaqdır. Əsasən, keyfiyyəti gücləndirmək üçün həmin agentliklər tərəfindən qəbul edilmiş prosedur qaydalar ilk vəzifəsi güclü şəkildə „istehlakçının müdafiəsini" təmin etmək funksiyasından ibarət olan təşkilatlarından tamamilə fərqli ola bilər. Bu standartlar Avropada xarici keyfiyyət yoxlamalarının əsas təcrübəsini əks etdirir; bu standartlar nə yoxlanılmalıdır və ya keyfiyyət yoxlamaları fəaliyyətini necə həyata keçirmək lazımdır deyib müfəssəl göstərişlər vermək cəhdindən ibarət deyildir. Agentliklər və səlahiyyətli nümayəndələr arasındakı informasiya

mübadilələri keyfiyyət yoxlamalarında artıq oxşar elementlərin yaranmasına təkan verməsinə baxmayaraq, bütün bunlar milli səlahiyyətlər, sərbəstlik məsələləri olaraq qalır.

Bununla belə, artıq xarici keyfiyyət yoxlamaları proseslərində olan əsas təcrübənin bəzi ümumi prinsipləri mövcuddur:

- müəssisə sərbəstliyinə hörmət olunmalıdır;
- tələbələrin və başqa iddiaçıların maraqları, belə ki, əmək bazarı nümayəndələri xarici keyfiyyət yoxlamaları proseslərinin ön cərgələrində, fəaliyyət mərkəzində olmalıdırlar;
- daxili keyfiyyət yoxlamaları fəaliyyəti nəticəsində əldə olunmuş „müəssisə yoxlamaları nəticələrindən" harada mümkündürsə istifadə olunmalıdır.

Bu „göstərişlər" standartların əsas təcrübəsi haqqında əlavə informasiya verməklə yanaşı, bəzi hallarda həmin standartların məna və əhəmiyyətini daha müfəssəl şəkildə izah edir. Baxmayaraq ki, bu „göstərişlər" standartların hissələri hesab olunmur, standartlar onlarla bir yerdə nəzərdən keçirilməlidirlər.

### *2.3 1-ci hissə: Ali təhsil müəssisələrində daxili keyfiyyət yoxlaması üçün Avropa standartları və əsas prinsiplər*

### *2.3.1 Keyfiyyət yoxlaması üçün siyasi xətt və prosedur qaydalar*

***Standart:***

Təhsil müəssisələrinin öz proqram və təlimatlarının keyfiyyətini yoxlamaq üçün onun siyasi xətti və əlaqəli prosedur qaydaları olmalıdır. Onlar həmçinin, öz işlərində keyfiyyətin əsasını və əhəmiyyətini zəruri edən mədəniyyətin inkişaf etdirilməsinə də ciddi səy göstərməlidirlər. Buna nail olmaq üçün təhsil müəssisələri keyfiyyətin ardıcıl olaraq gücləndirilməsindən ötrü bir strategiya hazırlayıb tətbiq etməlidirlər. Bu strategiya, siyasi xətt və prosedur qaydaların rəsmi statusu olmalı və onlar ictimaiyyət üçün açıq olmalıdırlar. Bura, həmçinin, tələbələrin və digər iddiaçıların rolu da daxil olmalıdır.

***Əsas prinsiplər***

Ali təhsil müəssisələrinin öz keyfiyyət yoxlamalarının effektivliyini monitorinq etməsi və təkmilləşdirməsi üçün formal (rəsmi statuslu) siyasi xətt və prosedur qaydalar fəaliyyət strukturunu təşkil edir. Onlar həm də müəssisə sərbəstliyi üçün ictimai inamın yaranmasına da kömək edirlər. Bu siyasi xətt özündə nailiyyətlərin əldə olunması üçün lazım olan əsas vasitələri, niyyət və məqsədləri ehtiva edir. Prosedur qaydalar siyasi xəttin həyata keçirilməsi üçün daha dəqiq informasiya verə bilir və bu prosedur qaydaların həyata keçirilməsinin praktik aspektləri haqqında bilgiyə ehtiyacı olanlar üçün faydalı yol göstərir.

Siyasi proqrama aşağıdakılar daxildir:

- müəssisədə tədrislə tədqiqat arasında olan əlaqə;

- keyfiyyət və standartlar üçün müəssisənin strategiyası;
- keyfiyyət yoxlama sisteminin təşkili;
- keyfiyyət yoxlaması üçün departamentlərin(kafedraların), dekanlıqların, fakültələrin, digər təşkilatlı qrupların və fərdlərin məsuliyyəti;
- keyfiyyət yoxlaması üçün tələbələrin cəlb olunması;
- siyasi xəttin tətbiqi, monitorinqi və yeniləşmə yolları.

Avropa Ali Təhsil Məkanında (EHEA) proseslərin həyata keçməsi əsasən müəssisənin bütün səviyyələrdə öz proqramlarını aydın və dəqiq şəkildə nəzərdə tutulmuş nəticələrlə təmin etmək üçün götürdüyü öhdəlikdən asılıdır; bunlar ştatın (işçi heyyətin) həmin nəticələrə nail olmaq üçün tələbələri lazımı tədris və təlim materialları ilə təmin etmək hazırlığı, istək və imkanları; müəssisənin işinə xüsusi qabiliyyəti, iş təcrübəsi və biliyi olan, eləcə də öz işinə vurğun işçilər tərəfindən nümayiş etdirilən real, vaxtında olan dolğun münasibətin göstərilməsidir. Bütün ali təhsil müəssisələri öz tələbələrinə təklif etdikləri təhsilin təkmilləşdirilməsi və gücləndirilməsi üçün maksimum səy göstərməlidirlər.

### *2.3.2 Proqram və qərarların müntəzəm olaraq nəzərdən keçirilməsi, monitorinqi və təsdiqi*

***Standart:***

Ali təhsil müəssisələrinin öz proqram və qərarlarını periodik yoxlama (nəzərdən keçirmə), monitorinq və təsdiq etmələri üçün rəsmi qaydada olan mexanizmləri olmalıdır.

***Göstərişlər:***

Ali təhsilə tələbələrin və digər iddiaçıların inamı, heç şübhəsiz, effektiv keyfiyyət yoxlaması fəaliyyətləri vasitəsilə yaradılmalı

və müdafiə olunmalıdır. Bunlar proqramların yaxşı tərtib olunmasını, mütəmadi monitorinqini və periodik nəzərdən keçirilməsini təmin etməklə yanaşı, onların münasibliyini və genişlənməsini təmin etməlidir.

Proqram və qərarların keyfiyyət yoxlamalarına aşağıdakıların daxil olması zəruridir:

- dəqiq nəzərdə tutulan öyrənmə nəticələrinin inkişafı və nəşr olunması;
- tədris planı və proqram tərtibatı, məzmuna diqqətli qayğı;
- çatdırılmanın müxtəlif üsullarına olan tələbat (məsələn, tam iş günü, yarı iş günü, uzaq məsafədən öyrənmə, elektron vasitələrin köməyi ilə öyrənmə) və ali təhsilin tipləri (məsələn, akademik, peşə təlimi və professional (peşəkar);
- uyğun öyrənmə ehtiyatlarının mümkünlüyü;
- proqramı tədris edəndən fərqli olaraq onun (proqramın) xüsusi orqan (heyət) tərəfindən rəsmi təsdiqolunma qaydaları;
- tələbələrin inkişaf və nailiyyətlərinin monitorinqi;
- proqramların mütəmadi (periodik) nəzərdən keçirilməsi (o cümlədən, xarici ekspert üzvlərinin iştirakı ilə)
- işçilər, əmək bazarı nümayəndələri və başqa münasib təşkilatlar tərəfindən olan ardıcıl münasibətlər və rəylər;
- keyfiyyət yoxlaması proseslərində tələbələrin iştirakı.

***2.3.3 Tələbələrin qiymətləndirilməsi***

***Standart:***

Tələbələr daima tətbiq olunan prosedur qaydalardan, nizamnamələrdən və nəşr olunmuş kriteriyalardan istifadə edilməsi yolu ilə qiymətləndirilməlidirlər.

***Direktivlər (göstərişlər):***

Tələbələrin qiymətləndirilməsi ali təhsilin ən mühüm elementlərindən biridir.Qiymətləndirmə nəticələrinin tələbələrin gələcək karyeralarında çox mühüm təsiri vardır. Buna görə də bütün vaxtlarda qiymətləndirmənin peşəkarcasına aparılması çox mühüm məsələdir və bu da test yoxlamaları və imtahan proseslərində zəruri olan geniş biliyin olmasını və təcrübəni nəzərdə tutur. Qiymətləndirmə, həmçinin, tədrisin effektli olması və tələbələrin (öyrəncilərin) dəstəklənməsi barədə təhsil müəssisələri üçün çox dəyərli informasiyalar verir.

Tələbələrin qiymətləndirilməsi üçün olan prosedur qaydalara aşağıdakılar daxildir:

- nəzərdə tutulan öyrənmə (təlim) nəticələrini və başqa proqram məqsədlərini qiymətləndirmək üçün tərtib olunmalı;
- istər diaqnostik, yaradıcılıq və ya yekunlaşdırma baxımından onların məqsədləri üçün uyğun olmalı;
- qiymətləndirmənin tələbələrin nəzərdə tutduqları ixtisaslarla bağlı olan bilik və bacarıqların qazanılması yolunda olan rolunu başa düşən insanlar tərəfindən aparılması;
- mümkün olan yerdə ayrıca ekzaminatorların rəylərinə etibar olunmaması;
- imtahan təlimatlarının bütün mümkün nəticələrini nəzərə almaq;
- tələbələrin dərsdə olmamasını, xəstəliyini və başqa yüngülləşdirici halları nəzərdə tutan aydın təlimatların olması;
- qiymətləndirmənin təhsil müəssisəsinin elan olunmuş qaydalarına uyğun olaraq etibarlı aparılmasının təmin olunması;
- administrativ(inzibati) yoxlamalar şərtilə prosedur qaydaların dəqiqliyinin təmin edilməsi.

Əlavə olaraq, tələbələr onların proqramları üçün istifadə olunan qiymətləndirmə strategiyası haqqında məlumatlandırılmalı, onlara hansı imtahanları vermələri və başqa qiymətləndirmə me-

todlarına məruz qalacaqları, onlardan nəyin tələb olunacağı və gözləniləcəyi, eləcə də onların hərəkətlərində hansı qiymətləndirmə kriteriyalarının tətbiq olunacağı barədə məlumatlandırılmalıdırlar.

### *2.3.4 Müəllim heyəti üçün keyfiyyət yoxlaması*

***Standart:***

Ali təhsil müəssisələri tələbələrin öyrədilməsinə (təliminə) cəlb olunmuş müəllim heyətinin nə dərəcədə keyfiyyətli və nə dərəcədə səlahiyyətli olmalarını təmin edən yollara sahib olmalıdırlar.

Bu yol və üsullar xarici yoxlamalar keçirən ekspertlər üçün də məlum olmalı və hesabatlarda şərh edilməlidir.

***Direktivlər:***

Müəllimlər əksər tələbələr üçün yeganə və ən mühüm öyrədici (təlim) mənbəyidir. Öyrətmə (təlimlə) ilə məşğul olanların tam biliyə və öyrətdikləri fənn haqqında tam anlayışa malik olmaları çox əhəmiyyətlidir. Onlar təlim konteksti dərəcəsində öz bilik və anlayışlarını effektli şəkildə tələbələrə vermək üçün lazımı bacarıq və təcrübəyə malik olmalı və eləcə də öz fəaliyyətləri barədə olan fikir və rəylərlə tanış olmaq imkanı əldə etməlidirlər. Təhsil müəssisələri yeni müəllim götürülməsi və təyinat qaydalarında bütün yeni heyətin ən azı minimum lazımı təcrübəyə və biliyə sahib olmalarını müəyyən edən vasitələrin olmasını təmin etməlidirlər. Müəllim heyətinə öz təlim bacarıqlarını inkişaf etdirib genişləndirmək imkanı verilməli, həm də onların bacarıqları mükafatlandırılma yolu ilə qiymətləndirilməlidir. Təhsil müəssisələri zəif müəllimlərə öz bacarıqlarını qəbul olunan səviyyəyə çatdırmaq imkanı verilməklə yanaşı onların aşkar şəkildə keyfiyyətsiz davam etdikləri təqdirdə dərs aparmaq vəzifəsindən kənarlaşdırmaq yollarına da sahib olmalıdırlar.

### *2.3.5 Öyrənmə mənbələri və tələbə dəstəyi*

***Standart:***

Təhsil müəssisələri tələbə təlimi(öyrənməsi) üçün mümkün olan ehtiyatların təklif etdikləri hər bir proqram üçün uyğun və adekvat olmasını təmin etməlidirlər.

***Direktivlər:***

Müəllimlərindən başqa tələbələr öz öyrənmələrinə kömək etmək üçün bir sıra mənbələrə də etibar edirlər. Bunlar material vəsaitlərdən-kitabxanalar, kompyuter avadanlıqları və s.ibarət olmaqla insan dəstəyi – müəllim, konsultant və digər məsləhətçilər formasında da ola bilərlər. Öyrədici vəsaitlər və başqa köməkçi mexanizmlər asan formada tələbələrin istifadəsi üçün mümkün olmalıdır. Eyni zamanda bu vəsaitlər tələbələrin ehtiyaclarını ödəmək məqsədilə tərtib olunmalı və eləcə də bu vəsaitlərdən istifadə edənlərin rəy və fikirlərinə tam cavab verməlidir. Təhsil müəssisələri bir qayda olaraq, tələbələrin ixtiyarına verilən bütün dəstək vəsaitlərinin monitorinqini aparmalı, onları nəzərdən keçirməli və onların effektli olmasını təkmilləşdirməlidirlər.

### *2.3.6 İnformasiya sistemləri*

***Standart:***

***Əsas prinsiplər:***

Xarici keyfiyyət proseslərindən maksimum faydalanmaq üçün hesabatların nəzərdə tutulmuş oxucu auditoriyasının tələblərini ödəməsi vacibdir. Hesabatlar bəzən müxtəlif oxucu kütləsi üçün nəzərdə tutulduğundan, onun quruluşuna, məzmununa və tonuna xüsusi diqqət tələb olunur. Ümumiyyətlə, hesabatlar təsvir, təhlil (münasib olan faktlar daxil olmaqla) nəticə və tərifləri əhatə etməklə tərtib olunmalıdır. Qeyri-peşəkar oxucuların yoxlamanın

məqsədlərini, onun formasını və qərarların qəbulunda istifadə edilən kriteriyaları başa düşmələri üçün imkan yaradan kifayət qədər ilkin izahatlar verilməlidir. Əsas nəticələr, məsləhətlər oxucular tərəfindən asanlıqla əldə olunmalıdır. Hesabatlar oxunması üçün əlverişli bir formada nəşr edilməli, oxucuların və istifadəçilərin bu hesabatların (uyğun müəssisə daxilində və xaricində) əhəmiyyətini şərh edə bilmələri üçün imkanları olmalıdır.

### *2.4.6 Sistemli prosedur qaydalar*

***Standart:***

Fəaliyyət üçün məsləhətlərdən ibarət olan və ardıcıl hərəkət planı tələb edən keyfiyyət yoxlama proseslərinin əvvəlcədən təyin edilmiş mərhələli şəkildə yerinə yetirilən prosedur qaydaları olmalıdır.

***Əsas prinsiplər:***

Keyfiyyət yoxlaması heç də fərdi xarici araşdırma hadisəsi deyildir: bu davamlı olaraq yaxşı iş görülməsi üçün bir cəhddir. Xarici keyfiyyət yoxlaması yalnız məlumatların nəşri ilə bitmir, onlar gərək məsləhətlərin uyğun olaraq araşdırılmasına və tələb olunan fəaliyyət planına əməl edilməsinə təminat verən mərhələli prosedur qaydalarla təmin olunmuş olsun. Bura müəssisə və ya proqram nümayəndələri ilə sonrakı görüşlər də daxil ola bilər. Burada məqsəd müəyyən olunmuş sahələrin sürətlə inkişaf etdirilməsi və sonradan gücləndirilməsindən ibarətdir.

### *2.4.7 Periodik (müntəzəm) yoxlamalar*

***Standart:***

Müəssisə və proqramların xarici keyfiyyət yoxlaması dövri əsasda həyata keçirilməlidir. Bu dövri və baxış yoxlamalarının müddəti əvvəlcədən müəyyənləşdirilməli və nəşr edilməlidir.

Direktivlər:

Keyfiyyət yoxlaması statik (sabit, hərəkətsiz) deyil, dinamik bir prosesdir. Bu proses „bir dəfəlik" deyil, ardıcıl olmalıdır. Bu proses ilk yoxlama və ya rəsmi yoxlama prosedurasının bitməsi ilə tamamlanmır. O, müntəzəm olaraq yeniləşməlidir. Ardıcıl xarici yoxlamalar ilk proseslərdən başlayaraq əldə edilən inkişafı nəzərə almalıdır. Bütün xarici yoxlamalarda istifadə ediləcək proseslər keyfiyyət yoxlama agentlikləri tərəfindən müəyyən edilməli və onların təhsil müəssisələrindən olan tələbləri qoyulmuş məqsədlərə nail olmaq istəyindən böyük olmamalıdır.

***2.4.8 Bütün sistemin təhlili***

***Standart:***

Keyfiyyət yoxlama agentlikləri vaxtaşırı olaraq öz yoxlama, qiymətləndirmə, yanaşma və sairəni təsvir və təhlil edən yekun məlumatlarını tərtib etməlidirlər.

***Əsas prinsiplər:***

Bütün xarici keyfiyyət yoxlama agentlikləri fərdi proqramlar və ya müəssisələr barədə zəngin məlumatlar toplayır və bu da bütün ali təhsil sistemlərindən keçən kompleks təhlillər üçün material təminatı yaradır. Belə təhlillər yaxşı təcrübə yaratmaqla, inkişaf və istiqamətlər barəsində olan faydalı məlumatları verə bilər ki, bu da öz növbəsində, siyasi inkişaf və keyfiyyət artımı üçün xeyirli bir vasitəyə çevrilə bilər. Agentliklər öz işlərindən yüksək həddə mənfəət əldə etmək üçün fəaliyyətlərinə

tapşırıqlarla birlikdə tədqiqat və inkişaf funksiyasını da daxil etməyi nəzərdə tutmalıdırlar.

### *2.5 III hissəyə giriş: Xarici keyfiyyət yoxlama agentlikləri üçün Avropa standartları.*

Avropa xarici keyfiyyət yoxlama agentliklərinin geniş şəkildə artımı 1990-cı illərdən vüsət almağa başlamışdır. Eyni zamanda, bu inkişafda əməkdaşlıq və ən yaxşı təcrübənin bölüşdürülməsi bütövləşmə (inteqrasiya) elementlərindən biri olmuşdur. Artıq 1994-1995-ci illərdə Avropa Komissiyasının təşəbbüsü ilə başlanan Avropa Sınaq Layihələri keyfiyyət yoxlamasının əsas metodologiyası kimi agentliklər tərəfindən qarşılıqlı tanınma ilə nəticələnmişdir: müstəqil agentliklər, özünü qiymətləndirmə, xarici təhsil müəssisələrinə səfərlər və ictimai hesabatların verilməsi 1998-ci ildə ali təhsildə keyfiyyət yoxlaması üzrə AİŞ-in tövsiyələrinin əsasını qoydu. Buna görə də, 2000-ci ildə Ali təhsildə Keyfiyyət Yoxlaması və Qiymətləndirmə üzrə Avropa Şəbəkəsinin (ENQA) yaranması əməkdaşlıq üşün bu inkişafın təbii formalaşması idi və ATKYQAŞ (ENQA) 90-cı illərdə müasir inkişaf səviyyəsi üçün konsensusa nail oldu. Bir-birinin ardınca yaranan xarici keyfiyyət yoxlaması agentlikləri üçün Avropa standartları Avropa xarici keyfiyyət yoxlamasının yeni tarixindəki inkişafına əsaslanaraq genişlənmişdir. Bundan başqa, aydın bir məsələdir ki, standartlar nə olduqca geniş, nə də çox darmənalı olmalıdır. Bu standartlar Avropa xarici keyfiyyət yoxlaması agentliklərinin azadlıqlarını, millət və dövlətlərin ümid və təcrübələrini təşkilat və proseslərdə öz əksini tapa bilməsi üçün məhdudiyyətlər qoymamalıdırlar. Standartlar, əksinə peşəkarlığı, etibarlılığı, agentliklərin bütövlüyünü iddiaçı təşkilatlar üçün şəffaf və görünən etməli, agentliklər arasında müqayisə aparıl-

masına və eləcə də lazımi Avropa ölçülərinin yaranmasına imkan verməlidir. Həmçinin o da qeyd olunmalıdır ki, bu yolla standartlar həm agentliklərin qarşılıqlı tanınma, həm də onların qiymət və akkreditasiya nəticələri üçün görülən işlər istiqamətində yardımçı olmağa xidmət etməlidir. Bu iş Ali Təhsildə Skandinaviya ölkələri Keyfiyyət Yoxlaması Şəbəkəsi (NOQA) tərəfindən araşdırılmış və Akkreditasiya üzrə Avropa Konsorsiumunun ,,Yaxşı Təcrübə Kodeksi"nin bir hissəsidir.

,,Yaxşı təcrübə" və bəzi hallarda standartların mənasını və əhəmiyyətini geniş şəkildə izah etmək nöqteyi-nəzərindən, əlavə məlumatı təmin etmək üçün bir neçə aparıcı (əsas) prinsiplər artırılmışdır. Bu əsas prinsiplərin standartların bir hissəsi hesab edilməsinə baxmayaraq, standartlar da onlarla bir yerdə nəzərdən keçirilməlidirlər.

### *2.6 Hissə 3. Xarici keyfiyyət yoxlaması agentlikləri üçün Avropa standartları və əsas prinsiplər.*

#### *2.6.1 Ali təhsildə xarici keyfiyyət yoxlamasi qaydalarinin istifadəsi*

***Standart:***

Agentliklərin xarici keyfiyyət yoxlaması Avropa Standartları və Əsas Prinsiplər(Direktivlər)-in 2-ci hissəsində təsvir edilmiş xarici keyfiyyət yoxlama proseslərinin tətbiq edilməsini və effektliyini nəzərə almalıdır.

***Əsas prinsiplər:***

2-ci hissədə nəzərdə tutulan xarici keyfiyyət yoxlaması üçün olan standartlar xarici keyfiyyət yoxlaması üçün çox dəyərli baza təşkil edir. Standartlar 90-cı illərin əvvəllərindən bəri Avropada

xarici keyfiyyət yoxlaması inkişafında əldə edilən ən yaxşı təcrübələrlə öz əksini tapır. Ona görə də, bu standartların xarici keyfiyyət yoxlaması agentlikləri tərəfindən ali təhsil sistemləri üçün tətbiq edilən proseslərdə istifadə olunması vacibdir.

Xarici keyfiyyət yoxlama standartları xarici keyfiyyət yoxlama agentlikləri üçün olan standartlarla birgə ali təhsil sistemlərinin peşəkar və etibarlı xarici keyfiyyət yoxlaması bazasını yaratmalıdır.

### *2.6.2 Rəsmi status*

***Standart:***

Agentliklər Avropa Ali Təhsil Məkanında səlahiyyətli ictimai qurumlar tərəfindən xarici keyfiyyət yoxlaması üçün məsuliyyət daşıyan agentlik kimi rəsmi formada tanınmalı və özünün qanunla yaradılmış bazası olmalıdır. Onlar tabe olduqları və fəaliyyət göstərdikləri qanunvericilik orqanları ilə öz fəaliyyətlərini uyğunlaşdırmalıdırlar.

### *2.6.3 Fəaliyyətlər*

***Standart:***

Agentliklər xarici keyfiyyət yoxlamalarını(təhsil müəssisələri və ya proqram səviyyəsində) müntəzəm əsasda həyata keçirməlidirlər.

***Əsas prinsiplər:***

Bura qiymətləndirmə, baxış, audit, münasibət, akkreditasiya və başqa oxşar fəaliyyət növləri də daxildir; bunlar agentliyin ən əsas funksiyalarından olmalıdır.

### *2.6.4 Ehtiyatlar*

***Standart:***

Agentliklərin kifayət qədər proporsional (uyğun) ehtiyatları (həm kadr, həm də maliyyə) olmalıdır ki, onlar agentliklərə xarici keyfiyyət yoxlama proseslərini effektiv və qaneedici formada həyata keçirməyə imkan versin. Bu isə həmin proses və prosedurların inkişafı üçün uyğun şərtlər daxilində olmalıdır.

***2.6.5 Hesabat əməliyyatlari:***

***Standart:***

Agentlik öz növbəsində şəxsi hesabatları üçün əməliyyatlara malik olmalıdır.

***Göstərişlər:***

Bu əməliyyatlar aşağıdakıları nəzərdə tutur:

1.Veb səhifəsində əldə edilməsi mümkün olan agentliyin özünün keyfiyyət təminatı üçün nəşr edilmiş siyasət:

2.Aşağıdakıları nümayiş etdirən sənədləşmə:

- agentliyin proses və nəticələri onun keyfiyyətə təminat tapşırıq və məqsədlərini əks etdirir;
- agentlik öz növbəsində öz xarici ekspertlərinin işində konfliktdən kənar maraq mexanizmini həyata keçirir;
- əgər agentliyin keyfiyyətə təminat əməliyyatlarında bəzi yaxud bütün elementlər başqa partiyalarla şəriklidirsə, bu halda agentlik şəriklər tərəfindən istehsal edilən hər hansı material və fəaliyyətin keyfiyyətini təmin edir;
- agentliyin xəbərdarlıq etmək, öz inkişaf və yaxşılaşmasını təmin etmək üçün daxili əks əlaqə mexanizmi (öz heyət və səfirliyindən əks əlaqə toplamaq deməkdir); daxili əks etdirmə mexanizmi (təkmilləşmə üçün daxili və xarici təminatı əks etdirmə deməkdir); və xarici əks əlaqə mexanizmi (gələcək inkişaf üçün

ekspertlər və yoxlama institutlarından əks əlaqə toplamaq deməkdir) daxil olan daxili keyfiyyətə təminat əməliyyatı olmalıdır.

3. Ən azı beş ildə bir dəfə agentliklərin fəaliyyətini mandatlı dövriyyəvi xarici yoxlama.

## 3.KEYFİYYƏT YOXLAMA AGENTLİKLƏRİ ÜÇÜN DƏQİQ YOXLAMA SİSTEMİ

Berlində nazirlər EUA, EURASHE və ESİB ilə birgə fəaliyyətdə ENQA nümayəndələri agentlik və orqanların keyfiyyət təminatı və səlahiyyətləri üçün kifayət qədər dəqiq yoxlama sisteminin təmin edilməsi yollarını araşdırmaq məqsədilə toplantı keçirdilər. ENQA və onun tərəf müqabilləri bu çağırışı mandatlığı aydınlaşdırma ilə qarşıladılar ki, agentliklərin dəqiq yoxlama sistemi təkcə dəqiq yoxlama sisteminin özünü deyil, eyni zamanda yoxlamanın əsasını təşkil edən keyfiyyət standartlarının hərtərəfli müzakirəsini də nəzərdə tutur. Bundan başqa, proses ərzində razılaşma əldə olunmuşdur ki, agentliklərin dəqiq yoxlanması əsasən onların keyfiyyətinin şəffaflığı, görünüşü və müqayisəsi məqsədini əldə etmək üçün vasitələr kimi aydınlaşdırılır.

Bu səbəbdən, hesabat Avropanın ali təhsil sistemində fəaliyyət göstərən tanınmış xarici keyfiyyətə zəmanət agentliklərinin jurnalının yaradılması məqsədini daşıyır. Bu təklifin əsası bu yaxınlarda tanınma və səlahiyyət etiketinin dəyərindən gəlir əldə etmək istəyən keyfiyyət təminatı orqanlarında artımın gözlənilməsidir. Digər ərazilərdə də təcrübə göstərib ki, belə müəssisələri idarə etmək çox çətindir, lakin Avropa artıq formalaşmış agentliklərin maraqlarını qorumaq üçün deyil, keyfiyyət təminatından alınan gəlirin pis ad çıxarmış terapevtlər tərəfindən azaldılmamasından əmin olmaq üçün bu yeni bazarın əməli idarə edilməsini məşq etdirməkdən ötrü unikal imkanlara malikdir. Prinsipcə, bu təkliflərə əsaslanan işdə Avropanın tələb və təklifləri nəzərə alınmışdır. Eyni zamanda bu prosesdə oxşar təcrübə və proseslərin beynəlxalq yolla inkişaf etməsi haqda məlumat olmuşdur. Ona görə də, bu fəsil hesabatın bu hissəsinin təsviri üçün münasib olan beynəlxalq təcrübə və təşəbbüslərin qısa analizi ilə açılır. Bundan sonra o, köməklik prinsipinə və xarici keyfiyyət təminatı agentlikləri üçün Avropa standartlarına əsaslanan təklif

edilmiş dəqiq yoxlama sisteminin xülasəsini verir. Bu icmal Avropada fəaliyyət göstərən xarici keyfiyyət təminatı agentliklərinin zəmanət jurnalının təqdim edilməsinə gətirib çıxarır. Dəqiq yoxlama və agentliklərin Avropa standartları ilə razılaşması jurnalın təşkilində həlledici rol oynayır. Nəhayət, Ali Təhsildə Yüksək Keyfiyyət üçün Avropa Məsləhət Forumu təklif olunur.

### *3.1.Beynəlxalq məzmun*

Avropa ali təhsilin keyfiyyətinə təminat sahəsindəki dinamik inkişafın mütəmadi olaraq baş verdiyi yeganə ərazi deyildir. Bu sektor Ali Təhsildə Keyfiyyət Təminatı Agentlikləri üçün Şəbəkə (ATKTAŞ), Universitet Rektorlarının Beynəlxalq Assosiasiyası (URBA), Amerika Birləşmiş Ştatlarında Ali Təhsildə Səlahiyyətlər üçün Şura(AATSŞ), OECD və UNESCO kimi təşkilatların təcrübə təşəbbüslərini təsvir edir. Hesabatın təsviri zamanı bu təşkilatların keyfiyyət təminatı ilə birgə əlaqədə işləməsi çox faydalı hesab edilmişdir. Bu beynəlxalq təcrübələrin xüsusi zəmanətlərə birbaşa daxil edilməməsinə baxmayaraq, aşağıdakı bəzi əsas beynəlxalq elementlər elə bir şəkildə təklif olunub ki, onlar bu fəsildə olan təminatlarla əlaqələnir. Agentliklərin xarici keyfiyyət təminatının yaxşı keyfiyyət və yaxşı əməliyyatlarının təyini bir neçə il ərzində gündəlikdə duran beynəlxalq məsələ olmuşdur. ATKTAŞ 1999-cu ildə və daha sonralar xarici keyfiyyət təminatı agentlikləti üçün keyfiyyət etiketi məsələsini müzakirə etdi. Bu ideya URBA tərəfindən təşəbbüs göstərilən ali təhsil institutlarının ehtiyaclarını qarşılamaq üçün hansı agentliklərin xarici keyfiyyət təminatı rolunu icra etməsi üzrə ixtisaslaşdırılmışdır. Keyfiyyət etiketi geniş vüsət almış müqavimətə rast gəldi və bunun əvəzində ATKTAŞ agentliklər üçün yaxşı praktika kriteriyalarının formalaşdırılmasında mərkəzləşdi. Bunun nəticəsi yaxşı praktikanın ümumi məxrəclərini təmsil edən bir sıra prinsiplərlə yanaşı, eyni zamanda təklif və tarixi-mədəni

məzmun şərtlərində agentliklərin beynəlxalq müxtəlifliyinin tanınmasıdır.

Agentliklərin dəqiq yoxlanmasına zəmanət şərti ilə AATSŞ tərəfindən görülən iş daha münasibdir. AATSŞ ABŞ-ın regional, xüsusiləşmiş, milli və peşəkar səlahiyyət agentliklərinin müdafiə orqanı kimi fəaliyyət göstərən qeyri-dövlət təşkilatıdır. AATSŞ tərəfindən tanınma araşdırmaları edən səlahiyyətli təşkilatlar AATSŞ-ın tanınma standartlarını qəbul etdiklərini nümayiş etdirməlidirlər. Səlahiyyətli təşkilatlardan akademik keyfiyyətin yüksədilməsi, hesabatların nümayiş etdirilməsi, təkmilləşdirməyə həvəsləndirmə, müvafiq əməliyyatların işə tətbiq edilməsi, səlahiyyət əməliyyatlarının daimi olaraq yenidən qiymətləndirilməsi və kifayət qədər resurslara malik olması gözlənilir. AATSŞ hər altı ildən bir nümayəndələrin tanınma yoxlamasından keçirilməsini tələb edəcəkdir. Hesabatda göstərilən təkliflərlə AATSŞ-nın yanaşması arasında mühüm oxşarlıq və uyğunluq vardır ki, bunlara dövri yoxlamalar misal ola bilər. Buna baxmayaraq bu hesabat agentliklərin keyfiyyət təminatına fərqli istiqamətdə yanaşma birinciliyi verib.

Əksinə Avropada fəaliyyət göstərən, ancaq Avropa təşkilatları olmayan agentliklər və ya milli cəhətdən tanınmayan Avropa agentliklərinə də öz fəaliyyətlərini Avropa standartlarına uyğunlaşdırmaqla yoxlanış- nəzarət forması seçmək imkanı verilməlidir.

Təklif olunan dövri baxış sistemləri üçün ümumi prinsiplər aşağıdakı formada təklif olunur:

Boloniya Prosesinə qoşulmuş üzv ölkələr tərəfindən rəsmi olaraq milli agentliklər kimi təsbit olunmuş və tanınmış xarici xarici yoxlama agentlikləri „ikinci"növ prinsipə hörmətlə yanaşaraq, hətta milli sərhədlərdən kənarda fəaliyyət göstərmələrinə baxmayaraq, milli əsaslar zəminində fəaliyyət göstərən qurumlar kimi nəzərdə tutulmalı və yanaşılmalıdırlar. Digər tərəfdən, bu milli agentliklər milli əsaslara söykənmiş daxili yoxlamalardan çox ENQA-Ali Təhsildə Keyfiyyət Yoxlamaları və Qiymətləndirmə üzrə Avropa Şəbəkəsi

tərəfindən təşkil olunmuş yoxlamaları seçə bilərlər. Agentliklərin yoxlamaları, əsasən, həmin agentliklərin yoxlama nəticələrinin xarici yoxlamalar üzrə Avropa standartları ilə uyğun gəlmələrini qiymətləndirməkdən ibarətdir.

- Bolonya iştirakçıları olan ölkələr tərəfindən təsbit olunmamış və rəsmi olaraq, tanınmayan agentliklər öz təşəbbüsləri ilə xarici yoxlama agentlikləri üçün Avropa standartlarına qarşı qoyulmuş kimi nəzərdən keçirilə bilərlər.
- Təftiş icmalları özünü qiymətləndirməni, müstəqil ekspertlər qrupunu və nəşr olunmuş hesabatları nəzərə almaqla həyata keçirilməlidir.

Xarici yoxlama müşahidələri səciyyəvi olaraq milli və ya agentlik səviyyəsində təşəbbüs olunur. Bunun üçün də agentliklərin yoxlama müşahidələri, adətən, milli nizamnaməyə və ya agentliklərdə olan daxili keyfiyyət yoxlamaları yerində olan proseslərə uyğun aparılır. Bu hesabatda „ ikincilik"prinsipinə hörmət əsaslı formada vurğulanır və ona görə də təklif olunur ki, ENQA öz üzvləri ilə bağlı agentliyə o halda təşəbbüslə müraciət edir ki, beş ildən sonra nə milli ölkə səviyyəsində, nə də agentliyin özü tərəfindən heç bir təşəbbüs göstərilməmişdir. Agentliyin qeyri-Avropa Şəbəkəsi üzvü olması və beş ildən sonra nə milli ölkə səviyyəsində, nə də agentliyin özü tərəfindən heç bir təşəbbüs göstərilməmişdirsə, o zaman Avropa Qeydiyyat Komitəsi (ERC) yoxlama müşahidələri aparmaq üçün cavabdehdir.

Ölkə səlahiyyətlilərinin yoxlama müşahidələri aparılması üçün təşəbbüs etdikləri zaman, məqsəd şəksiz olaraq tamam geniş ola bilər və bu da ölkə mandatının yerinə yetirilməsindən ötrü agentliyin işə qatılmasını zəruri edir; məsələn, yoxlama müşahidələrinin aparılması ölkə, agentlik və ya ENQA-Avropa Şəbəkəsi tərəfindən təşəbbüs olunmasından asılı olmayaraq, bu təklifin əsas elementlərindən hesab olunur və həmişə aydın şəkildə hesab edir ki, həmin agentlik xarici keyfiyyət yoxlaması üzrə Avropa standartlarına tam

uyğundur. ENQA-nın Baş Assambleyası 2004-cü ilin noyabr iclasında qərara almışdır ki, ENQA-Təhsildə Keyfiyyət Yoxlaması və Qiymətləndirmə üzrə Avropa Şəbəkəsinin üzvlük kriteriyaları xarici keyfiyyət yoxlamaları üçün təklif olunmuş Avropa standartları ilə tam uyğundur. Uyğun olaraq, agentliyin müşahidələri təkcə, Avropa standartları ilə uyğunluq səviyyəsini göstərmir, eyni zamanda ENQA-nın üzvlük kriteriyaları ilə uyğunluq səviyyələrini də göstərir. Nəhayət, hesabatda qeyd olunur ki, münasib təcrübəyə və ekspertizaya malik beynəlxalq ekspertlərin işə cəlb olunması yoxlama – müşahidə prosesinə əsaslı fayda verəcəkdir.

Dövri yoxlama müşahidələrinin ardıcıllığı ölkə səlahiyyətlilərinin və ya agentlik sahiblərinin, eləcə də agentliyin özünün birinci və başlıca məsuliyyəti olacaqdır. ENQA-nın mərhələli yoxlamalarda üzv agentlik kimi rolu o yerdə olacaqdır ki, orada ENQA üzv agentliyin yoxlama müşahidələri nəticələrinin uyğun olaraq, xarici keyfiyyət yoxlaması üçün olan Avropa standartlarının tələblərinə hansı səviyyədə uyğun gəlməsini təsdiq etmiş olsun. Əgər iş müsbət deyilsə, ENQA-nın nizamnaməsi uyğun olaraq nəticələri müəyyən edəcəkdir.

Agentliyin xarici yoxlama müşahidə işinin nümunəvi fəaliyyət prosesi əyani icmal formasında bu hesabata daxil edilmiş əlavədə göstərilmişdir.

### *3.2 Avropada fəaliyyət göstərən xarici keyfiyyət yoxlaması agentliklərinin qeydiyyatı*

ENQA-Avropa Şəbəkəsi 2003-cü ildə Bolonya Prosesi iştirakçısı olan üzv dövlətlərin Təhsil Nazirlərinin Berlin iclasında Avropada fəaliyyət göstərən və ya fəaliyyət göstərməyi planlaşdıran, ictimai, fərdi və tematik agentlikləri özündə birləşdirən keyfiyyət yoxlamaları agentliklərinin uyğun iddiaçılarla əməkdaşlığı sayəsində Avropa Qeydiyyatı məsələsini inkişaf etdirmək öhdəçiliyini öz üzərinə götürdü.

Qeydiyyat Komitəsi Avropada fəaliyyət göstərən peşəkar və etibarlı keyfiyyət yoxlamaları həyata keçirən agentlikləri təyin etmək imkanında olan ali təhsil müəssisələri və hökumətlərin maraqlarına cavab verəcəkdir. Bu maraqların ilk növbədə mürəkkəb sahələrdə öz əsasları vardır; bu, qeyri-milli dərəcələrin tanınmasıdır. Tanınmış agentliklər tərəfindən təminatçıların özlərinin nə dərəcədə etibarlı və yüksək keyfiyyətli olması şəffaflığın tanınması, agentliklərin tanınması üçün prosedur qaydaların güclənməsinə səbəb olacaqdır. İkincisi, ali təhsil müəssisələrinin özlərinin ölkə sərhədləri daxilində olan agentliklərdən  keyfiyyət yoxlamalarını aparmaq axtarışlarının olması tam mümkündür. Ali təhsil müəssisələrinə etibarlı qeydiyatda olan professional agentliklərin içərisindən seçilib təyin olunması prosesində yardım olunacaqdır. Qeydiyyatın ən dəyərli köməyi onun ali təhsil müəssisələri və digər iddiaçılar üçün informativ dəyərinin olmasıdır və eyni zamanda qeydiyyat komitəsinin özünün öz  içərisində ali təhsil müəssisələrində keyfiyyət yoxlaması üçün şəffaflığın və müqayisənin əldə olunmasında çox faydalı bir alətə çevrilməsi olacaqdır.

Qeydiyyat Komitəsi iştirakçıların xarici keyfiyyət yoxlamaları aparmaq üçün onların Avropa standartlarına uyğunluq səviyyələrini müəyyənləşdirməlidirlər. Bununla belə vurğulamaq yerinə düşərdi ki, bu hesabatın məqsədi heç də  Qeydiyyat Komitəsini agentlikləri səviyyələrinə görə sıralayan bir təşkilat kimi qələmə verməkdən ibarət deyildir. Bu təşkilat Avropa daxilində xidmətlər göstərən bütün agentliklərdən, o cümlədən Avropa xaricində olan ölkələrdə işləyən, yaxud transmilli və beynəlxalq  əsaslarla fəaliyyət göstərən agentliklərin qeydiyyatı ərizələrinin alınması  üçün açıq olmalıdır.

Agentliklər qeydiyyatda müxtəlif bölmələrdə olacaqlar;

- yoxlamalar üçün bərabər səlahiyyətli olub-olmamaları,
- xarici keyfiyyət yoxlaması agentlikləri üçün olan Avropa standartlarına uyğun olub-olmaması,

- ciddi şəkildə ölkə daxilində və ya ölkə xaricində fəaliyyət göstərməsi.
- Buna görə də qeydiyyat üçün mümkün struktura aşağıdakı kimi verilə bilər:
- Bölmə 1. Yoxlamalar üçün bərabər səlahiyyətli agentliklər aşağıdakı kateqoriyalara bölünürlər:
- Xarici keyfiyyət yoxlaması agentlikləri üçün olan bütün Avropa standartlarına cavab verən və yoxlanılmış Avropa milli agentlikləri.
- Yoxlanılmış, lakin xarici keyfiyyət yoxlaması agentlikləri üçün olan bütün Avropa standartlarını yerinə yetirməyən Avropa milli agentlikləri.
- Xarici keyfiyyət yoxlaması agentlikləri üçün olan bütün Avropa standartlarını yerinə yetirən və yoxlanılmış Avropada fəaliyyət göstərən qeyri-milli və Avropadankənar ölkələrdə fəaliyyət göstərən agentliklər.
- Nəzərdən keçirilmiş və Avropada fəaliyyət göstərən, lakin xarici keyfiyyət yoxlaması agentlikləri üçün olan Avropa standartlarını yerinə yetirməyən agentliklər.
- Bölmə 2. Nəzərdən keçirilməmiş (yoxlanılmamış) agentliklər
- Nəzərdən keçirilməmiş (yoxlanılmamış) və buna görə də qeydiyyata salınma üçün verilmiş ərizələrə uyğun olaraq toplanmış informasiyalara əsasən siyahıya alınmış Avropa milli agentlikləri, qeyri-milli və Avropadankənar ölkələrdə fəaliyyət göstərən agentliklər.

Cədvəl şəklində təqdim olunmuş qeydiyyat strukturu aşağıdakı kimidir:

| | | |
|---|---|---|
| Təklif olunmuş və nəzərdən keçirilmiş (keçirilməmiş) qeydiyyat strukturu | | |

| | | | | |
|---|---|---|---|---|
| Avropa milli agentlikləri | Milli operatorlar | Avropa standartları ilə uyğun olan | Avropa standartları ilə uyğun olmayan | Avropada fəaliyyət göstərən qeyri-Avropa agentlikləri |
| | Beynəlxalq operatorlar | | | |
| Avropa qeyri-milli agentlikləri | | | | |
| Avropada fəaliyyət göstərən qeyri-Avropa agentlikləri | | | | |

Avropada qeydiyyata düşmək üçün rəsmi icazə Avropa Qeydiyyat Komitəsinin qərarı ilə veriləcəkdir. Komitə xarici keyfiyyət yoxlaması agentlikləri üçün olan Avropa standartlarına agentliyin uyğun olub-olmaması qaydalarından istifadə edəcəkdir. Qeydiyyata salınma üçün bu formada qəbul dövri nəzərdən keçirmələr zamanı müəyyən edilmiş kriteriyalardan biri kimi qəbul edilir. Ali təhsil sistemlərinin müxtəlifliyini nəzərdə tutan digər kriteriya isə düşünülməli və inkişaf etdirilməlidir.

Komitə EURASHE, ESİB, EUA, ENQA (ATAİİ, AMTİ, AUA,ATKYQ) tərəfindən irəli sürülmüş 9 üzvdən və Avropa işçilərini, ittifaqlarını, peşəkar təşkilatları, eləcə də dövlət nümayəndələrini təmsil edən təşkilatlardan ibarət çevik və qeyri-bürokratik bir orqan olacaqdır. Bu üzvlər təyinedici təşkilatların səlahiyyətli nümayəndələri kimi yox, öz fərdi qabiliyyətləri çərçivəsində fəaliyyət göstərəcəklər. ENQA Qeydiyyat Komitəsinin katiblik vəzifələrini icra edəcək və yarım ildə ən azı bir dəfə görüşəcəkdir.

Avropa Qeydiyyat Komitəsi ilk icra tapşırığı kimi, komitənin mülkiyyətini formalaşdıracaqdır.

Komitənin başqa təxirəsalınmaz vəzifələrindən biri isə qeydiyyat prosesində yer ala bilməyən və geri qaytarılmış təşkilatların hüquqlarını müdafiə etmək üçün müstəqil və etibarlı müraciət

sistemi qurmaqdan ibarətdir. Bu müraciət sistemi komitənin fəaliyyət göstərməsindən dərhal sonra protokolda öz əksini tapmış elementlərdən biri olmalıdır.

***3.4 Ali Təhsildə Keyfiyyət yoxlamaları üzrə Avropa Məsləhət Forumu*** 2001-ci il Praqa görüşündən sonra Ali təhsildə Avropa Keyfiyyəti və Bolonya Prosesləri haqqında uyğun baxış və yanaşmaları müzakirə etmək üçün ENQA, EUA, ESİB və EURASHE-dan ibarət E4 qrupu ilə müntəzəm əsaslarda görüşmüşlər. 2003-cü il Berlin görüşündən sonra E4 qrup üzvlərinin əsas diqqəti ali təhsildə keyfiyyət yoxlaması və təminatı üzrə Nazirlər mandatının yerinə yetirilməsi üzərində olmuşdur.

Avropa səviyyəsində olan bu əməkdaşlıq özünün konstruktiv olduğunu sübut etmişdir. Bu 4 təşkilat Ali Təhsildə Keyfiyyət Yoxlaması üzrə Avropa Məsləhət Forumunun E4 qrupundan formalaşaraq, fəaliyyətlərini davam etdirmək üzrə razılığa gəliblər. Belə bir forumun əsasının qoyulması praktik şərtlər əsasında ENQA, EUA, EURASHE və ESİB arasında daha möhkəm və daimi əsaslarla olan cari əməkdaşlığın qurulmasını təmin edərdi. Forum əsasən, əsas Avropa iddiaçıları üçün konsultativ və məsləhət forumu kimi fəaliyyət göstərəcəkdir. O, hər hansı bir yeni administrativ təşkilat qurmadan bu 4 uyğun təşkilatın iştirakını və öz xərclərini maliyyələşdirməyi və cari hazırlıqların görülməsini təmin edəcəkdir. Forum hətta uzun müddətə əmək bazarı nümayəndələrini də öz sıralarına daxil edə bilərlər.

### *4. Gələcək perspektivlər və vəzifələr.*

Bu hesabatda Ali Təhsildə keyfiyyət yoxlamaları üzrə dünyada olan əsas Avropa ölkələri tərəfindən işlənib hazırlanmış, təsdiq edilmiş təklif və məsləhətlər öz əksini tapmışdır. Təkliflər

tələbələr və ümumiyyətlə, cəmiyyət üçün ali təhsilin yüksək şəffaflığı, təhlükəsizliyi haqqında informasiya təqdim edir. Onlar bərabər şəkildə ali təhsil müəssisələri üçün artan rəqabətli və skeptik mühit şəraitində  tanınma, etibar və imkanlarını nümayiş etdirməklə yüksək keyfiyyət naminə öz səylərini nümayiş etdirmək yollarını da təklif edirlər. Keyfiyyət yoxlamaları agentlikləri üçün olan təkliflər  onların özlərinin keyfiyyət və etibarlılığını gücləndirməklə yanaşı, onları geniş Avropa qardaşlığı və əməkdaşlığı yolunda daha faydalı şəkildə birləşdirir.

Onu da vurğulamaq lazımdır ki, effektli icra və tətbiqetmə strategiyasına sahib olmadan təkliflər təklif olaraq qalacaqdır. Bergendə Nazirlər tərəfindən təsdiq olunacaq bu hesabatın bəzi elementlərinin təqdim olunub, həyata keçməsi üçün təxirəsalınmaz addımlar atılacaqdır.Keyfiyyət yoxlaması agentliklərinin qeydiyyatının 2005-ci ilin ikinci yarısından başlanması  və 2006-cı ildə davam etdirilməsi nəzərdə tutulur. ENQA katibliyi bu məqsədlərlə bağlı lazım olan əlavə ehtiyatlar üçün təkliflər vermişdir. Nazirlərin görüşünün ardınca ENQA Avropa Qeydiyyat Komitəsinin təsisi üçün konkret təşəbbüslər göstərəcəkdir. Komitə öz işinə  qeydiyyat mülkiyyətinin formalaşdırılması və 2005-ci ilin yazında ENQA tərəfindən görülmüş ilkin işlərə əsasən layihə protokolunun tərtib olunması ilə başlayacaqdır. İlk dövri yoxlamaların başlanması 2005-ci ildə gözlənilir.

Ali Təhsildə Keyfiyyət Yoxlaması üzrə Avropa Мяшвярят Forumu ilkin təşəbbüs olacaqdır. Belə ki, Bergen Nazirlər görüşünün nəticələri və forumun təsis olunması 2005-ci ilin iyununda ENQA və onun E4 tərəfdaşları arasındakı növbəti görüşün əsas mövzusu olacaqdır. Görüşdə həm də  digər  iddiaçı təşkilatlarla, məsələn, əmək bazarı nümayəndələri ilə  gələcək əməkdaşlıq müzakirələrin əsas mövzularından olacaqdır. ENQA, eyni zamanda, özünün 2005-ci ilin Sentyabrında olan Baş Assambleyaya (Məclisə) qədərki digər Avropa Keyfiyyət Yoxlamaları

Şəbəkələri ilə də görüşlər keçirməyi də planlaşdırmışdır. Bu hesabatda olan müəyyən təkliflərin tez bir zamanda həyata keçirilməsi o biri məsələlərin yerinə yetirilməsinin asan olacağı anlamında başa düşülməməlidir. Daxili və xarici keyfiyyət yoxlamaları standartlarının təhsil müəssisələri və agentliklər tərəfindən geniş şəkildə qəbul edilməsi uzun bir vaxt aparacaqdır, çünki onların bu standartları qəbul etməsi köklü və güclü təhsil sistemlərinə malik iştirakçı ölkələrin hesabına dəyişmək və inkişaf etdirmək hazırlığından asılı olacaqdır. Daxili keyfiyyət yoxlaması standartlarında təklif olunan hər bir fikir bəzi ali təhsil institutları üçün qarşıda duran vəzifələr olacaqdır, xüsusilə o yerdə ki, orada keyfiyyət yoxlaması üçün yeni və inkişaf edən ənənə vardır; o yerdə ki, orada tələbə maraqlarına və onların müəyyən edilmiş qaydalara əsasən iş bazarlarına daxil olmaq hazırlıqlarına xüsusi diqqət vardır. Oxşar qaydada, xarici keyfiyyət yoxlaması və keyfiyyət yoxlaması ilə məşğul olan agentliklərin özləri üçün olan standartlar bütün iştirakçılardan, xüsusilə agentliklərdən özlərinə qarşı çox diqqətli olmağı və öz metodlarını Avropa „ümidlərinə” qarşı qoyarkən çox ölçülü addımlar atılmasını tələb edir. Yeni dövri yoxlama prosedurları bu məqsədlər üçün vaxtlı-vaxtında diqqətin olmasını təmin edəcəkdir. Standartların qəbul edilməsinin faydalılığı o zaman olacaqdır ki, onların qəbul edilməsi ümumi hal alacaqdır.

AATM(EHEA) ali təhsil üçün fərdi ümummilli məsuliyyət əsaslarla fəaliyyət göstərir, bu isə xarici keyfiyyət yoxlamaları məsələlərində sərbəstliyi nəzərdə tutur. Buna görə də, bu hesabat nizamlayıcı deyil və ola da bilməz; o sadəcə peşəkarlar, ali təhsil müəssisələrindən seçilmiş ekspertlər, o cümlədən tələbələr, nazirlər və keyfiyyət yoxlamaları ilə məşğul olan agentliklər arasında qarşılıqlı hörmət ruhuna xidmət edən məsləhət və təkliflərini verir. Bəzi iştirakçı ölkələrin standartları qorumaq istəkləri ola bilər və bu zaman onlar prosesləri öz qanunvericilik

bazaları əsasında yaxud inzibati qaydalar çərçivəsində həyata keçirirlər. Başqaları isə belə etməyin uyğun olub-olmamasını yoxlamaq üçün uzun bir yol keçməyi arzu edə bilərlər; bu isə dəyişiklik etmə üstünlüklərinin status gücünə qarşı olan çəkisindən ibarətdir. Təklif olunmuş Ali Təhsildə Keyfiyyət Yoxlaması üzrə Avropa Məsləhət Forumu özünün yeni fikirləri, milli təcrübələrlə başqa sistemlərin təcrübələrini, oxşarlıqları və fərqləri öyrənmək, müzakirə etmək üçün ən faydalı bir yer və ya təşkilat olduğunu subut etməlidir.

Bütünlüklə isə, gələcək zamanda ENQA və onun E4 tərəfdaşları, eləcə də əsas iddiaçı təşkilatlar üçün əhəmiyyətli və stimulverici iş yükünün olması gözlənilir. Hesabatın özündən aydın olur ki, bu hesabatın yerinə yetirilməsi heç də EHEA-da (AATM) Bolonya sisteminin əsas məqsədlərindən biri olan keyfiyyət yoxlaması səviyyəsini təmin etmək kimi bir şey deyildir.

Qarşıda isə bu hesabatdan irəli gələn məsləhətlərin yerinə yetirilməsi və ali təhsil müəssisələri ilə xarici keyfiyyət yoxlama agentlikləri arasında nəzərdə tutulan keyfiyyət mədəniyyəti kimi daha ağır işlər durur.

Güclü, sərbəst və effektli ali təhsil müəssisələri olan Avropa Ali Təhsil Məkanı (AATM), keyfiyyət və standartların əhəmiyyəti üçün olan kəskin duyğu hissi, yaxşı yoxlama-baxış müşahidələri, etibarlı keyfiyyət yoxlama agentlikləri, faydalı qeydiyyat, başqa iddiaçı təşkilatlarla olan yüksək əməkdaşlıq (işçi mübadiləsi) və s. indi bir gerçəklikdir və bu hesabatda olan təkliflər toplusu bu gerçəklikləri həyata keçirmək üçün uzun bir yol keçməlidir.

# ƏLAVƏ: KEYFİYYƏT YOXLAMA AGENTLİKLƏRİNİN DÖVRİ YOXLAMALARI – NƏZƏRİ MODEL

Aşağıda təqdim olunmuş model xarici keyfiyyət yoxlama agentliklərinin xarici yoxlama aparma prosesləri üçün təklif olunmuş göstərici  sxematik bir modeldir. Bu model etibarlı proseslərin xarici keyfiyyət yoxlama agentlikləri üçün olan Avropa standartları ilə uyğun olub-olmamasını təyin etmək üçün bir nümunədir. Bununla belə qeyd olunmalıdır ki, burada məqsəd öyrədici və əyanilikdir. Buna görə də, detallar çox incəliklərinə qədər verilmiş və hətta agentliklərin fərdi müşahidə-yoxlamalarında ehtiyac duyulduğundan da artıq dərəcədə göstərilmişdir. Buradan belə aydın olur ki, təqdim olunan proses özü-özlüyündə standart kimi başa düşülməməlidir. Daha sonra qeyd olunmalıdır ki, təqdim edilmiş nümunədəki ,,qiymətləndirmə”(evaluation) termini məqsədlər və prosesləri nəzərdə tutur. ,,Akkreditasiya” və ya ,,audit”(təftiş) kimi terminlərdən də istifadə oluna bilər.

Proses aşağıdakı elementləri əhatə edir:

- fəaliyyət sferasının qısa xülasəsi və yoxlama protokolu;
- ekspertlər qrupunun adlandırılması və təyinatı;
- agentlik tərəfindən özünü qiymətləndirmə;
- təhsil müəssisələrinə baş çəkmə;
- hesabat vermə

***1. Fəaliyyət sahəsi***

Fəaliyyət sferası perspektivlər dili ilə səlahiyyətlilərin, iddiaçı təşkilatların və agentliyin özünün maraqlarını göstərmək üçün yoxlama məqsədlərini müəyyənləşdirməlidir. Agentliyin bütün əsas tapşırıqları və fəaliyyətləri elə əhatə olunmalıdır ki, heç bir gizli məsələ üçün şübhə yeri qalmasın.

***2. Özünüqiymətləndirmə***

***2.1 Yoxlamanin əsasi kimi agentlikdən tələb olunan ilkin (mənbə) informasiya***

Agentliyin işlədiyi konteksti başa düşmək üçün münasib (uyğun) ilkin informasiyanın lazım olması. Bölməyə aşağıdakılar daxildir:

***2.1.1 Milli ali təhsil sisteminin qısa icmalı, o cümlədən:***

- dərəcə strukturu;
- təsis olunmuş struktur;
- yeni fənlərin, proqramların və müəssisələrin təsis olunmasında cəlb edilmiş tərəflər və prosedur qaydalar;
- digər keyfiyyət yoxlama prosedurları
- hökumətlə münasibətdə ali təhsil müəssisəsinin statusu

***2.1.2 Ayrıca götürülmüş bir agentliyin və ümumiyyətlə, ali təhsil müəssisəsinin qiymətləndirilməsi tarixi haqqında qısa hesabat:***

- tapşırığın (missiyanın) təsdiq edilməsi;
- agentliyin təsis olunması (hökumət, ali təhsil institutları və başqaları);

- agentliyə aid olan leqal (qanuni) çərçivənin və digər rəsmi təlimatların (məs., parlament qanunları, nazirliyin əmr və sərəncamları) təsviri;
- agentliyin maliyyələşdirilməsi;
- qiymətləndirməni aparmaq üçün hüquqların tətbiqi;
- agentliyin daxili təşkilatı; o cümlədən təyinat qaydaları və idarə heyəti (tərkibi)/şurası;
- ali təhsili qiymətləndirməsindən başqa agentliyin başqa məsuliyyətləri;
- agentliyin beynəlxalq fəaliyyəti, o cümlədən rəsmi razılaşmalar, həmçinin digər fəaliyyət növləri; məs, konfranslarda iştirak etmə, işçi qrupların və heyət üzvlərinin mübadiləsi;
- agentliyin mərhələli qiymətləndirmələrdə rolu: nəticələr və tədbirlər.

***4 Əlavənin strukturu bu yaxınlarda Skandinaviya ölkələrində keyfiyyət yoxlama agentliklərinin qarşılıqlı surətdə bir-birini tanıması haqqında olan layihə proqramına yaxındır.***

### *2.2 Agentlik tərəfindən həyata keçirilən xarici keyfiyyət yoxlamasi*

Agentliyin ali təhsil institutlarının və ya proqramların xarici keyfiyyət yoxlamasını düzgün əsaslarda keçirməsini göstərən faktlar (dəlillər) olmalıdır. Bu keyfiyyət yoxlamasına qiymətləndirmə, akkreditasiya, baxış (yoxlama baxış), audit və yanaşma (qiymətləndirmə) daxildir; bu kriteriyalar agentliyin əsas vəzifələrini təşkil edir. „Düzgün" (regular) termini

burada qiymətləndirmənin sistematik qaydalarla planlaşmasını nəzərdə tutur və son 2 ildə keyfiyyət yoxlaması üzrə bu cür qiymətləndirmələr həyata keçirilmişdir.

Bu faktlara aşağıdakılar daxildir:

- agentliyin metodoloji imkanlarının təsviri;
- keçirilmiş keyfiyyət qiymətləndirmələrinin sayı haqqında hesabat və qiymətləndirilmiş vahidlərin (təhsil müəssisələrinin) sayı.

### *2.3 Agentlik tərəfindən tətbiq edilən qiymətləndirmə metodu*

#### *2.3.1 İlkin informasiya*

Qiymətləndirmə üzrə tam planlaşdırmanın hesabatı və agentliyin şəffaf metodoloji qaydalarla işləməsini müəyyən etmək üçün digər fundamental məsələlərə olan ehtiyac.

Bu hesabata daxildir:

- qiymətləndirilmiş təhsil institutları ilə brifinq keçirmə qaydaları və ünsiyyət (danışıq);
- tələbə iştirakı üçün agentliyin strategiyası;
- fərdi qiymətləndirmənin istinad/ layihə planlarının qurulma şərtlərinə aid qaydalar;
- qiymətləndirmə şərtləri (istinad) (əvvəlcədən müəyyən olunmuş kriteriya, hüquqi sənədlər, fənlər üzrə testlər, peşəkar standartlar, qiymətləndirilmiş təhsil müəssisəsinin elan olunmuş məqsədləri);
- konkret (spesifik) yoxlamalar üçün metodoloji elementlərin müəyyən olunma (dəyişmə) səviyyəsi (dərəcəsi).

### *2.3.2 Metodologiya elementləri*

Agentliyin işlədiyi metodoloji yanaşmaların əvvəlcədən müəyyən edilməsini və ictimaiyyət üçün açıq olmasını göstərən faktların hesabatı.

Bu metodologiyaya daxildir:

- özünüqiymətləndirmə və ya verilmiş qiymətləndirmə obyekti üzrə uyğun (ekvivalent) qaydalar;
- bir qrup ekspert tərəfindən aparılan xarici qiymətləndirmə və agentlik tərəfindən qərara alınmış yerlərə (təhsil müəssisələrinə) səfər;
- ictimai nəticələri özündə əks etdirən hesabatın dərc olunması.

Agentlik xüsusi məqsədlər üçün yararlı başqa metodoloji üsullar hazırlayıb tətbiq edə bilər. Hətta fikirlərin müxtəlif qruplardan olmasına baxmayaraq, agentliyin qərarları və hesabatlar prinsip və tələblər nöqteyi-nəzərindən üst-üstə düşür.

Agentliyin qiymətləndirmə qərarlarını qəbul etməsi üçün müraciət forması(qaydası) vardır. Bu metologiya agentliklərin ehtiyaclarını ödəmək üçün tətbiq olunur.

Əgər agentlik məsləhətlər vermək və ya şərti qərarlar qəbul etmək istəyirsə, onun nəticələri yoxlamaq üçün sistemli prosedur qaydaları vardır.

### *2.3.3 Xarici ekspert qrupunun rolu haqqında hesabat*

Xarici ekspert qrupunun rolu haqqında hesabat aşağıdakılardan ibarət olmalıdır:

- espertlərin adlarının irəli sürülməsi və təyinatı; xarici ekspertlərdən istifadə etmə kriteriyaları, iddiaçı təşkilatların nümayəndələri-işçilər və tələbələr daxil olmaqla;
- brifinq keçirmə metodları və ekspertlərin treyninqi (öyrədilməsi);
- tam qiymətləndirmə prosesləri ilə əlaqəli say, vaxt (iş) qrafiki və imkanlar haqqında ekspertlər arasında görüşlərin keçirilməsi;
- agentlik və ekspertlər arasında əmək bölgüsü;
- qiymətləndirmədə agentlik heyətinin rolu haqqında;
- qiymətləndirməyə məsul olan agentlik heyətindən üzvlərin müəyyən edilməsi və təyinatı.

### *2.3.4 Sənədləşmə*

Agentliyin öz-özünü qiymətləndirməsi və müəssisələrə baş çəkmələrlə(səfərlər) bağlı prosedur qaydaları müəyyənləşdirməkdən ötrü sənəd toplanması üçün agentliyin prosedur qaydaları barədə bir neçə hesabata olan ehtiyac:

### *2.3.4[1]Özünüqiymətləndirmə ilə bağlı qaydalar haqqında hesabat*

Bu hesabatda aşağıdakılar olmalıdır:

- agentlik tərəfindən təqdim olunan göstərişlərdə (direktivlərdə) məzmunun spesifikasiyası (dəqiq təsnifatı);
- agentlik tərəfindən təmin olunan prosedur məsləhətlər;
- tələbələrin rolu nəzərə alınmaqla, özünüqiymətləndirmə komandasının (qrupunun) tərkibi üzrə tələblər;

- özünüqiymətləndirmə komandasının treyninqi və onlar haqqında informasiya;
- özünüqiymətləndirmə prosesini keçirmək üçün vaxt mümkünlüyü.

***2.3.4.[2] Təhsil müəssisələrinə səfər qaydaları haqqında hesabat***

Bu hesabatda aşağıdakılar olmalıdır:

- sorğu/müsahibə protokolları;
- iştirakçıların/informantların (məlumat verənlərin) seçilmə prinsipləri (kateqoriyalar və müəyyən iştirakçılar);
- səfərlərin müddət (nə qədər olmalıdır) prinsipləri;
- görüşlərin sayı və orta hədd;
- görüşlərin sənədləşməsi (daxili/xarici, görüş protokolları, səs yazmaları, çəkilişlər və s.);
- xarici ekspert qrupunun iş metodları.

***2.3.4. Hesabatlar***

Sənədləşmə zamanı hesabatda aşağıdakı informasiyalar olmalıdır:

- hesabatın məqsədi;
- hesabatın layihəsi (agentlik və ya ekspert heyəti tərəfindən hazırlanır);
- hesabatın formatı (dizayn/tərtib və həcm (uzunluq);
- hesabatın məzmunu (sənədləşmə və ya ancaq analizlər/ məsləhətlər);
- hesabat layihəsi haqqında qiymətləndirilən tərəflərdən olan rəylər/fikirlər üçün prinsiplər;

- nəşr qaydaları və siyasi xətt (məs.KİV-in işləməsi);
- təxirəsalınmaz seminar və ya konfransların keçirilməsi;
- uzunmüddətli mərhələli fəaliyyət növləri (mərhələli qiymətləndirmə prosesləri və ya səfərlər).

***2.3.5 Müraciət forması***

Agentlik öz qərarlarına qarşı müraciət (protest) metodu sənədləşdirir (hazırlayır) və bu metodologiya agentliyin ehtiyacları üçün tətbiq olunur. Müraciət formasının dinləmə prosesinə nə dərəcədə əsaslanması sənədləşmədən aydın olmalıdır; bu vasitə ilə agentlik qiymətləndirmə nəticələrinin nə dərəcədə dəqiq və ya şübhəli olmasını şərh edə bilir.

Agentlik əsasən qiymətləndirməyə məruz vahidlərin qiymətləndirmə nəticələri haqqında müraciət (protest) formasının fikirlər/rəylər ifadə etmək imkanında olması üçün faktlar verməlidir.

***2.4 Əlavə sənədləşmə***

Əlavə sənədləşmə burada məlumat verilməyən sorğular, statistik material və başqa sənədləşmə növləri haqqında hesabatlar təmin edilməlidir. Bu materiallar ictimaiyyət üçün açıq olmalıdır

***2.5 Agentliklərin keyfiyyət sistemi üçün prosedur qaydalar***

Agentlik özünün xarici keyfiyyət yoxlaması üçün nəzərdə tutulan Avropa standartlarına uyğun daxili keyfiyyət yoxlama mexanizmləri olmasını sənədləşdirməlidir.

### *2.6 Son düşüncələr*

Yeni tələblərə və tendensiyalara uyğunlaşma qabiliyyətinin, möhkəm və etibarlı metodoloji struktur və idarəçilik modelinə xidmət yolunda öz fəaliyyətlərini durmadan inkişaf etdirməyin əhəmiyyətini və mənasını vermək üçün agentliyin gücü, zəif cəhətləri, imkanları və qorxuları

barədə dərin təhlilə ehtiyac vardır.

### *3 Xarici müşahidə (yoxlama) qrupları üçün direktivlər*

Bu direktivlər xarici müşahidə (yoxlama) qrupları üçün ümidləri ifadə edir. Bura daxildir:

- təyinetmə və ümumi təşkilatçılıq;
- təhsil müəssisələrinə səfərlər;
- hesabatın tərtibi.

Yuxarıda təsvir edildiyi kimi, nəzərdən keçirilən (yoxlanılan) agentlik göstərilən qaydalara uyğun olaraq özünüqiymətləndirmə haqqında hesabat verməlidir. Özünüöyrənmə haqqında olan sənəd səfərdən 1 ay qabaq gec olmayaraq xarici yoxlama(müşahidə) qrupuna göndərilməlidir.

### *3.1 Xarici müşahidə (yoxlama) qrupunun təyin olunmasi*

Bu bölmə yoxlama apara bilən xarici ekspertlərin təyin olunmasından bəhs edir. Xarici ekspert qrupu aşağıdakı ekspertlərdən ibarət olmalıdır:

- bir və ya iki keyfiyyət yoxlama ekspertləri (beynəlxalq);
- ali təhsil müəssisələrinin nümayəndəsi (milli);
- tələbə üzvü (milli);

- iddiaçı təşkilat üzvü (işçi, milli).

Bu ekspertlərdən biri xarici ekspert yoxlama qrupunun sədri seçilməlidir.

Bu qrupun müstəqil formada agentlikdən olmaq şərtilə bir nəfər katib kimi fəaliyyət göstərəcək şəxslə təmin olunması məsləhət görülür.

Ekspertlər agentliklər, iddiaçı təşkilatlar və yerli səlahiyyətli nümayəndələrdən ola bilər. Ancaq etibarlılığı və inamı təmin etmək üçün ekspertlərin təyin olunma tapşırığı cəlb olunmuş agentliklərdən kənar 3-cü bir tərəfə tapşırılsın. Üçüncü tərəf kimi, məsələn, ENQA ya da prosesə cəlb olunmamış bir başqa agentlik də çıxış edə bilər. Ekspertlərin tanınma bazası kimi onların müstəqil olması haqda olan bəyannamə olmasıdır. Bununla belə, yoxlama qrupunun tərkibi haqda yoxlanılan agentliyin şərh verməsi və ya fikir bildirməsi mümkündür.

***3.2 Yerlərə (təhsil müəssisələrinə) səfər***

Yerlərə səfərlər barədə protokolların olması vacibdir və aşağıdakı kimi olmalıdır:

Səfərin 2 və ya 3 günlük olması məsləhət görülür. Bu həm də yoxlanılacaq agentlik və onun əhatəsi haqqında xarici yoxlama qrupunun əvvəlki məlumatları və bilgilərindən asılı olaraq yoxlama üçün hazırlıqları və sistemliliyi də nəzərdə tutur. Səfərdən bir gün qabaq yoxlama qrupu görüşüb səfərin mövzuları haqqında razılaşırlar. Yerlərə səfərlərin əsas məqsədi özünü yoxlamanın düzgünlüyünü yoxlamaqdan ibarətdir. Bu məqsədlə müsahibələrin planlaşdırılması da perspektiv planda ola bilər. Səfərə agentliyin idarə heyəti,

rəhbərlik, heyət üzvləri, ekspertlər, mülkiyyətçilər/əsas iddiaçı təşkilatlar, yoxlanılan institutların nümayəndələri ilə rəhbərlik səviyyəsində, eləcə də daxili özünüyoxlama komitə üzvləri ilə müxtəlif görüşlərin keçirilməsi daxildir.

### *3.3 Hesabatın hazırlanması*

Ümumi müddəaları yerinə yetirməkdən başqa hesabat özünüyoxlama protokollarında xarici keyfiyyət yoxlama agentlikləri üçün müəyyən olunmuş Avropa standartları ilə dəqiq tərzdə uyğun olmalı, gələcək inkişaf üçün məsləhətlərə və mümkün olan vasitələrə diqqət yetirməlidir.

Səfərdən sonra katiblə müşayiət olunan xarici yoxlama qrupu hesabat tərtib edir.

Son nüxsələrdən biri fakt səhvlərinin şərh/izah olunması üçün yoxlanılan agentliyə göndərilir.

Форматы 60x84 1/16
Ш.ч.в. 3.75, Тираъ 1000

«Ярэцняш» ФМ няшриййат-полиграфийа мцяссисяси
Бакы ш., Йасамал р-ну, Талыблы кцч. 38